07_27 IYUl-QARA.qxd 2/23/2024 12:46 AM Page 1

UNİKAL

№07 (2189) 23 fevral 2024-cü il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.az unikal-1@mail.ru



# Fransa regionda gərginlik ocağı yaradır: Ermənistan hiyləgər oyunun qurbanı ola bilər



Səh.9

## "Hökumət yenidən formalaşıb, ola bilər müəyyən problemlər olsun"

*Milli Məclisin deputatı Vahid Əhmədov "Unikal"a müsahibə verib. O, dolların bahalaşma ehtimalından, son vaxtlar qiymətlərin artmasından, büdcəyə yenidən baxıla biləcəyindən, quru sərhədlərin nə vaxt açılacağından, sosial və iqtisadi sahədə hansı yeniliklərin olacağından danışıb.*

*-Vahid müəllim, bu il başlayandan hərraclarda dollara olan tələbin yüksəldiyini görürük. Sizcə 2024-cü ildə dolların bahalaşması gözlənilirmi?*

*-Düşünürəm ki, dollar bu il üçün hazırkı səviyyədə qalacaq. Amma dünyada baş verən siyasi, iqtisadi proseslər gec-tez dolların müəyyən qədər bahalaşmasına səbəb olacaq. Hazırda isə neftin qiyməti yüksəkdir, ehtiyatlarımız var. 2024-cü ildə dolların bahalaşması ilə bağlı qorxu yoxdur. Əlbəttə, hərraclarda dollar alışı kifayət...*

Səh.4

## "Sülh sazişinin imzalanması hələ də mümkündür" - Sahibə Qafarova



*Azərbaycan Milli Məclisi Asiya Parlament Assambleyasına sədrliyi iki il müddətinə öz üzərinə götürür. "Unikal" xəbər verir ki, bu barədə Azərbaycan parlamentinin sədri Sahibə Qafarova Bakıda keçirilən Asiya Parlament Assambleyasının 14-cü plenar sessiyasında çıxışı zamanı deyib.*

Səh.2

## Köhnə məmurlar Adil Kərimliyə qarşı



*Bu günlərdə məlum oldu ki, "Tammetrajlı bədii film layihələrinə dəstək - 2022" müsabiqəsinin nəticələrinin elan olunmasından 2 ilə yaxın vaxt keçməsinə baxmayaraq qalib layihələrə nəzərdə tutulan pul mükafatı ödənilməyib. Halbuki hələ 2022-ci ildə Azərbaycan Respublikasının İqtisadiyyat...*

Səh.8

## "Qarabağ" tarixində ilk dəfə avrokubokların 1/8 finalına yüksəldi




*"Qarabağ" tarixində ilk dəfə avrokubokların 1/8 finalına yüksəlib. "Unikal" xəbər verir ki, Azərbaycan çempionu UEFA Avropa Liqasının pley-off mərhələsində Portuqaliyanın "Braqa" klubunu üstələyərək, bunu reallaşdırıb. Səfərdə 4:2 hesablı qələbə qazanan Ağdam təmsilçisi...*

Səh.15

07_27 IYUI-QARA.qxd 2/23/2024 12:46 AM Page 2



# Şəbnəm Tovuzlu hakim qarşısına çıxarılır



***Nəsimi rayon Məhkəməsində müğənni Şəbnəm İlyas qızı Tapdıqova ilə Şəbnəm Tovuzlu (Əsədova Şəbnəm Ələddin qızı) arasında keçiriləcək məhkəmə iclasının vaxtı məlum olub.***

"Unikal"ın məlumatına görə, məhkəmə prosesi fevral ayının 27-də hakim Nail Abbasovun sədrliyi ilə keçiriləcək.

Məhkəmədə iddiaçı qismində Şəbnəm Tapdıq, cavabdeh qismində isə Şəbnəm Tovuzlu tanınıb. Ş.Tapdıq məhkəməyə müraciət etməsini adla deyil, qarşı tərəfin ona atdığı şər və böhtanla əlaqələndirib.

Qeyd edək ki, məhkəmə prosesi ötən ilin dekabrından başlasa da Şəbnəm Tovuzlunun prosesə gəlməməsi səbəbindən baxış iclası təyin edilmirdi. 15.02.2024-cü il tarixdə isə hazırlıq iclası keçirilib və baxış iclası təyin edilib.

***Azər İsrafilov***

# "Bəzi meyxanaçıların ağlı bunu həzm edə bilmir" - Namiq Qaraçuxurlu

***Meyxanaçı Namiq Qaraçuxurlu sosial şəbəkədə arxiv görüntülərini paylaşıb.***



Sənətçi illər əvvəl konserti zamanı çəkilən görüntülərinə bunları yazıb: "Təəssüf olsun ki, bəzi meyxana həvəskarları, hətta bəzi meyxanaçılar bu sənəti o qədər dar çərçivədə dərk edirlər ki, vaxtı ilə bu hadisələrin realda baş verdiyini hələ də ağılları həzm edə bilmir. Heç yuxuda da görə bilmirlər. Paxıllıqdan görməzdən gələnlər isə ayrı bir acıdır.

Meyxana yalnız qəzəl, musiqi, gülüş məkanı, əyləncə, drama, nə də mərsiyədən başqa bir şey deyildir. Bu janrların əksəri özlüyündə möhtəşəmdir, lakin meyxana bütün bunların ən şirin, cana yaxın tərəfini özündə ehtiva etmək bacarığı olan sənətdir. Meyxana bununla meyxanadır! Sadaladığım hər bir janrın əksər müştəriləri meyxanadan həzz payı ala bildiyi üçün meyxana bütün qadağalara rəğmən heç vaxt kütləviliyini itirməyib. Meyxananı sevə-sevə çərçivəyə salıb məhv etməyin lütfən. İstedadlı və ya həvəskar olmaq hələ geniş təfəkkürə sahib olub təbliğat aparmaq üçün kifayət deyil! Düşüncənizi, dünya görüşünüzü zənginləşdirin mütləq! Meyxananı qorumaq üçün dilinizi qoruyun, amandır".

# Aybəniz Haşımovanın qardaşı saxlanıldı

***Quba polisi xüsusi əməliyyat keçirib. Əməliyyat zamanı rayon ərazisində dələduzluq edərək vətəndaşlardan küllü miqdarda pul alan şəxs saxlanılıb.***



Belə ki, Quba rayon Polis Şöbəsinin əməkdaşlarının keçirdikləri əməliyyat axtarış tədbirləri zamanı Haşımov Şaiq Həsən oğlu tutulub.

O, rayon ərazisində qaziləri, şəhid ailələrini, müalicəyə ehtiyacı olan uşaqların valideynlərini guya türkəçarə üsulu ilə sağaldacağı vədini verərək aldadıb.

.Küllü miqdarda pullarını alaraq dələduzluq edib. Şaiq Həşimov Polis şöbəsinə daxil olan məlumat əsasında saxlanılıb. Barəsində araşdırma başlanılıb.

Qeyd edək ki, Şaiq Haşimov Xalq artisti Aybəniz Haşımovanın qardaşıdır(den.az)



# Bir vaxtlar küsülü olan Xatirə və Afaq bir arada

***Bir vaxtlar aralarında qalmaqal yaşanan aparıcı Afaq Gəncəli və müğənni Xatirə İslam bir araya gəlib.***

Axşam.az xəbər verir ki, onlar müğənni Sevda Yahyayevanın övladları üçün etdiyi məclisdə görüşüblər. Afaq və Xatirənin birlikdə çəkilən fotosu sosial şəbəkədə paylaşılıb.

Qeyd edək ki, Afaq və Xatirə arasında qalmaqala səbəb aparıcının efirə çıxmaq üçün qonorar tələb edəcəyini deyən ifaçını tənqid etməsi olub. "Adama deyərlər, ayağını yorğanına görə uzat. Əgər efirdən pul istəyirsənsə, onda niyə toylara gedirsən? Toy müğənnisi olma, otur evində, efirdən pul al və çıx oxu" deyə, Afaq açıqlamasında deyib.

Afaqın bu sözlərinə isə Xatirə sərt reaksiya vermişdi.

# "Miri Yusif 15 min manat hesab ödəyib"

***Xalq artisti Miri "Zarafat bir yana" proqramında qonaq olub.***



Veriliş zamanı müğənniyə ödədiyi ən yüksək hesab soruşulub. Miri Yusif "Belə şeyləri unutmaq lazımdır" cavabını verib.

Daha sonra proqramın aparıcılarından Nicat Rəhimov bunun 15 min manat olduğunu söyləyib.

İfaçı isə "Mənim ad günüm idi. Orada təsəvvür edin nə qədər dostlarım var idi" deyə, əlavə edib.

# "İlhamə Quliyeva olsa idi, mən bu qələti edə bilərdim?" - Nazilə Səfərli

***"Son zamanlar özümü İlhamə Quliyevaya bənzətməyə başlamışam".***

"Unikal" bakıvaxtı.az-a istinadən xəbər verir ki, bu sözləri şair Nazilə Səfərli "Şou xəbər" verilişinə açıqlamasında deyib.

O, mərhum xalq artistindən söz salıb: "Hətta bu yaxınlarda Tolik mənə ad günü etdi. Məni kresloda əyləşdirdi. Monitorda özümə baxdım, öz-özümə dedim ki, "İlhamə Quliyeva sağ olsaydı, mən bu qələti edə bilərdim?" İlhamə xanım çox hegemon qadın idi. Yaxşı ki də, elə idi".

07_27 IYUl-QARA.qxd 2/23/2024 12:46 AM Page 3





# İran "Qafan kartı"nı gündəmə gətirir - Təhlil

***İranın Qafandakı baş konsulu Morteza Abedin Azərbaycanın Zəngəzur dəhlizi layihəsinə qarşı dolayı eyhamlar vurub.***

Diplomat Ermənistanın News.am saytına müsahibəsində deyib ki, İran Qafanda konsulluq açdıqdan sonra sakinlər özlərini daha rahat və təhlükəsiz hiss edirlər. Bununla diplomat sətiraltı bildirmək istəyir ki, İran Azərbaycana qarşı Ermənistanın təhlükəsizliyinə zəmanət verir.

Hərçənd ki, Azərbaycanla İran arasında hərbi və siyasi gərginlik dövrü arxada qalıb, indi iki ölkə maraqlarını iqtisadi-ticari platformalarda birləşdirərək regional əməkdaşlığın konturlarını cızır. Ancaq İran Yaxın Şərqdə üzləşdiyi riskləri dolayı vasitələrlə Cənubi Qafqazda da hiss etdirməkdə maraqlıdır. Çünki İran xarici siyasətində izlənən klassik bir ənənə var: nə qədər çox münaqişə və müharibə varsa, İran ideoloji istiqamətlərini təhlükəsizlik boşluqlarına yeritməlidir. Yox, bu, o mənanı çıxarmaq üçün əsas deyil ki, dünya arenasında sıxışdırılan İran Cənubi Qafqazda Qərblə açıq qarşıdurma trayektoriyasına girməkdə maraqlıdır.

Ancaq İran mütləq sülh də istəmir, buna görə də regiondakı hadisələri özünəməxsus ifadələrlə təsvir edərək gərginliyin mənbəyini saxlamaq məcrasında qalır. Nəzərə alaq ki, İran təhlükəsizlik cəhətdən zəifliklər hiss edir, ona görə ki, ölkənin daxilində belə, xarici kəşfiyyat orqanlarının fəaliyyəti tez-tez vurğulanır.

İranın daxili təhlükəsizlik arenasında titrəyişlər olduqca, bu, SEPAH və onun kölgəsində olan qüvvələri "xarici cəbhə üzrə" aktivləşdirir. Tehran bununla ideoloji amili qabardaraq hərbi-siyasi elitanın xalq tərəfindən dəstəklənməsi imkanlarını araşdırır. Buna görə də demək mümkündür ki, cənab Abedinin açıqlaması İran hərbi-siyasi və ruhani elitasındakı sərt xətt tərəfdarlarının ümumiləşmiş səsidir. Ancaq nəticə etibarı ilə iranlı diplomatın bəyanatı ölkəsinin həm xarici siyasətdə, həm də daxili siyasi mühitdə ehtiyat görə bilməməsindən irəli gələn böhranı vurğulayır.

İkinci bir tərəfdən, İran Azərbaycanla münasibətlərdə "istənilən zaman gərginliyə getməkdə maraqlıyıq" ismarışını verir. Bu mesaj Azərbaycan və Türkiyədən Zəngəzur dəhlizinin əhəmiyyəti barədə yüksələn mövqelərə verilən klassik reaksiyanın təkrarıdır.

Düzdür, bu, İranın strateji şüuraltındakı məramın ifadəsidir, amma bəyanat diplomatiya cəhətdən də qüsurlu hesab oluna bilər.

Ona görə ki, bir diplomatın yerli sakinlərin hiss və düşüncələrini manipulyasiya edərək onu Azərbaycana qarşı müqavimət oxu kimi yönləndirməsi etik deyil. İkinci bir tərəfdən, konsulluqla təhlükəsizliyin nə əlaqəsinin olması sualı yaranır.

Başqa bir tərəfdən də sual olunur: Məgər Azərbaycan ermənilərin hüquq və təhlükəsizliyini şübhə altına alır? Xeyr, əksinə, Azərbaycan Ermənistanla sülh gündəliyindəki ştrixləri regional sülh, firavanlıq və region xalqlarının rifahı kodeksinə kökləyir.

***Aqşin Kərimov***

# Köhnə məmurlar Adil Kərimliyə qarşı

## Mədəniyyət Nazirliyində pul qalmaqalları niyə səngimək bilmir?

***Bu günlərdə məlum oldu ki, "Tammetrajlı bədii film layihələrinə dəstək - 2022" müsabiqəsinin nəticələrinin elan olunmasından 2 ilə yaxın vaxt keçməsinə baxmayaraq qalib layihələrə nəzərdə tutulan pul mükafatı ödənilməyib. Halbuki hələ 2022-ci ildə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti tərəfindən qalib layihələrin maliyyələşdirilməsi üçün dövlət satınalmasına razılıq verilib.***

Qalib layihələrin müəllifləri mətbuata açıqlamalarında bildiriblər ki, bununla bağlı layihə müəllifləri, prodüser və rejissorlar keçən müddət ərzində dəfələrlə nazirliyə müraciət etsələr də heç bir əsaslı cavab alınmayıb. Əvəzində isə



Nazirlik nümayəndələri tərəfindən hər dəfə layihənin yaxın zamanda yekunlaşdırılacağı ilə bağlı yerinə yetirilməyən vədlər verilib.

O da məlum olub ki, mədəniyyət naziri Adil Kərimli məsələdən halı olunca problemin həll olunacağını bildirib və bununla bağlı Azərbaycan Respublikasının Kino Agentliyinin (ARKA) sədri Orxan Fikrətoğluna tapşırıq verib. Lakin həmin tapşırıqdan sonra da heç bir adekvat addım atılmayıb. Qalib layihə müəlliflərinin dediklərindən belə anlaşılır ki, ARKA və onun rəhbəri Orxan Fikrətoğlu iki il öncə nazirlik tərəfindən keçirilmiş müsabiqəni tanımaq istəmir, bir növ, nazirin qərarının əksinə addım atır. "Bu baş verənləri aylarla müsabiqəyə hazırlaşan, iştirak edən bütün yaradıcı şəxslərə və prodüserlərə, eyni zamanda, böyük əziyyət çəkərək münsiflər heyəti (Oleq Səfərəliyev, Mehriban Ələkbərzadə, Şamil Süleymanov, Asif Rüstəmov, Nadir Əliyev, Hacı Səfərov) qismində layihələri qiymətləndirən və hələ də gördükləri iş qarşılığında qonorarları ödənməyən peşəkarlara qarşı hörmətsizlik kimi qəbul edirik. ARKA rəhbərliyinin yekunlaşmaqda olan prosesi məqsədli şəkildə uzatmaq cəhdini böyük məyusluqla qarşılayırıq. İşin yubadılmasına səbəb olan hərəkətsizliyi anlaşılmaz qəbul edərək məsələnin hüquqi müstəvidə həlli üçün müvafiq instansiyalara müraciəti məqsədəuyğun hesab edirik" - deyə layihə rəhbərləri qeyd ediblər.

Qalmaqalın böyüməsindən sonra Mədəniyyət Nazirliyindən bildirilib ki, qalib şirkətlərə nəzərdə tutulmuş vəsaitin yaxın zamanda köçürülməsi istiqamətində işlər görülür. Sitat: "2021-ci ildə Mədəniyyət Nazirliyi tərəfindən elan olunmuş "Tammetrajlı bədii film layihələrinə dəstək - 2022" müsabiqəsinin qaliblərinin mükafatlandırılması ilə əlaqədar aidiyyəti qurumlarla razılaşdırmaqla zəruri sənədləşmə işləri həyata keçirilməkdədir. Yaxın zamanda qalib şirkətlərə nəzərdə tutulmuş vəsaitin köçürülməsi istiqamətində işlər davam etdirilir".

ARKA-dan isə deyilib ki, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi tərəfindən keçirilmiş "Tammetrajlı bədii film layihələrinə dəstək 2022" film layihələri müsabiqəsinin qalib layihələrinin maliyyələşdirilməsi işləri müvafiq qaydada Mədəniyyət Nazirliyində həll edilib. "Mədəniyyət nazirinin əmri ilə nazirliyin 2022-ci ildən qalmış borcu ilə bağlı ARKA tərəfindən ödənilmək üçün Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinə müvafiq məktub göndərilib", - deyə açıqlamada qeyd olunur.

Onu da deyək ki, Mədəniyyət Nazirliyi tərəfindən müxtəlif sifarişlər, layihələr və müsabiqələr üçün mükafatların, qonorarların öz sahiblərinə ödənilməsi hələ sabiq nazir Əbülfəs Qarayevin zamanından ciddi problem olaraq qalıb. Qarayevin sələfi Anar Kərimovun nazir olduğu dövrdə də oxşar hallar davam edib.

Nümunə olaraq xatırladaq ki, iki il öncə bəstəkar Firudin Allahverdi bu günlərdə sosial media hesabında paylaşım edərək iri-həcmli əsərlərə verilən qonorarın az olmasından şikayətlənmişdi. Onun sözlərinə görə, bəstəkarlarımızın iri həcmli musiqi əsərlərinə meyl etməməsinin səbəblərindən biri məhz qonorarın kifayət qədər olmamasıdır.

Bəstəkar Mədəniyyət Nazirliyindən şikayətlənmişdi: "Bu sual çoxdandır cəmiyyətimizi, xüsusilə də onun mədəni kəsimini düşündürür. Şəxsi təcrübəmdən gəldiyim nəticələrə əsasən bunun səbəblərindən biri, bəlkə də ən mühümü barədə fikirlərimi bölüşmək istəyirəm. 2016-cı ilin baharında Dövlət Musiqili Teatrında "Baladadaşın toy hamamı" adlı müziklım səhnəyə qoyuldu. Pandemiyaya görə teatrların bağlandığı ana qədər 4 il boyunca bu tamaşa, demək olar ki, hər ay oynanıldı. Həmin ilin sonunda məni Mədəniyyət Nazirliyinə dəvət edib, imzalamağım üçün qonorarla bağlı sənəd təqdim etdilər. Baxdım ki, sənəddə göstərilən məbləğ Nazirlər Kabinetinin müvafiq qərarında bu formalı əsərlər üçün göstərdiyi məbləğin (10 000 AZN) düz yarısıdır. Səbəbini soruşduqda mənə dedilər ki, "orada göstərilən maksimal məbləğdir, yaşlılar, canlı korifeylər üçün nəzərdə tutulub. Sən isə cavansan, ona görə də sənə yarısını təqdim edirik.Mən bundan imtina edib, bunu ayrı-seçkilik hesab etdiyimi dedim. Cavabları bu oldu ki, budur. Nə etsən də, hara yazsan da xeyri olmayacaq".

Ümumiyyətlə, ötən illərin təcrübəsi göstərir ki, Mədəniyyət Nazirliyində kino, musiqi, teatr və s. sahələrdə çalışanların halal haqlarına - qonorarlarına, mükafatlarına başqa (!) gözlə yanaşan müəyyən vəzifəli şəxslər var. Adıçəkilən qurumda nazirlər dəyişir, lakin həmin məmurlar belə görünür ki, postlarında qalırlar. Əks təqdirdə Adil Kərimlinin mədəniyyət naziri təyinatından sonra yenə də sənət adamları ilə ən müxtəlif müstəvidə pul qalmaqalları yaşanmazdı. Sözügedən qalmaqalların haqqında danışılan məmurlara, bəlkə də, isti-soyuğu yoxdur, hətta ola bilsin onlara bu cür xoşdur. Ancaq bu cür hay-küylü söz-söhbətlərin eynilə Əbülfəs Qarayevin, Anar Kərimovun zamanında olduğu kimi Mədəniyyət Nazirliyini və nazirin özünü gərəksiz yerə tənqid hədəfinə çevirdiyi birmənalıdır.

***Sənan Mirzə***

07_27 IYUl-QARA.qxd 2/23/2024 12:46 AM Page 4



# Fransa regionda gərginlik ocağı yaradır: Ermənistan hiyləgər oyunun qurbanı ola bilər



***Fransanın anti-Azərbaycan siyasəti və Ermənistanı da müxtəlif müstəvilərdə bu yöndə istiqamətləndirməsi davam etməkdədir. Ermənistan Baş naziri Paşinyanın Fransaya son səfəri, orada verilən bəyanatlar da bunu deməyə əsas verir.***

Nikol Paşinyan Parisdə Fransa prezidenti Emmanuel Makronla keçirdiyi brifinqdə “Ermənistan və Fransa müdafiə sahəsində yeni əlaqələr qurublar ki, bu da Cənubi Qafqazda təhlükəsizliyin və sabitliyin təmin edilməsi baxımından mühüm əhəmiyyət kəsb edir”, - deməsi də mövcud durumi açıq şəkildə ortaya qoyur. ”Bu məsələ ilə bağlı tənqidlər var, lakin biz qeyd etmək istəyirik ki, Ermənistan bütün qonşularının ərazi bütövlüyünü tanıyır və ölkəmizin müdafiə qabiliyyətinin inkişafı təşviş doğura bilməz. Bizim yeganə vəzifəmiz ölkədə düzgün balans yaratmaqdır.”, - Paşinyan qeyd edib. Öz növbəsində Makron qeyd edib ki, Fransa Ermənistanla müdafiə sektorunda əməkdaşlığı davam etdirəcək. O, Parisin Ermənistana müdafiə silahlarının verilməsinə razılıq verdiyini xatırladıb.

Görüş zamanı Fransa rəhbərinin səsləndirdiyi fikirlər onun ermənipərəst mövqeyini bir daha göstərdi. Belə ki, Fransa prezidenti Emanuel Makron Qarabağ ermənilərinin geri qayıtmalı olmasından və Ermənistanın hücumuna Azərbaycanın cavab tədbiri görməsindən danışıb. Hər iki məsələ ilə bağlı da qərəzli fikirlər səsləndirib.

Azərbaycan Xarici İşlər Nazirliyi Fransaya məsələ ilə bağlı cavab verib. Bu ölkənin sülh və sabitliyə mane olmaq istiqamətində yürütdüyü məkrli siyasətinin heç bir nəticə verməyəcəyi bəyan edilib.

”Le Figaro” qəzeti isə yazıb ki, Fransa Ermənistana yeni silahlar təhvil verəcək. Bildirilir ki, 2023-cü ilin oktyabrında Fransa və Ermənistan arasında hava hücumundan müdafiə sistemləri ilə bağlı niyyət məktubu imzalanıb. Sazişə əsasən, Fransa Ermənistana üç ədəd ”Thales” şirkəti tərəfindən istehsal edilən ”Ground Master” (GM200) radarı və ”Safran” şirkəti tərəfindən istehsal olunan gecəgörmə qurğuları tədarük edəcək. Tədarüklərin bu gün həyata keçiriləcəyi bildirilir. Məqalədə qeyd olunur ki, Fransa hərbçiləri, həmçinin Ermənistan ordusuna bu il üç dağ döyüş hazırlığı kursu təşkil edəcək. Bundan başqa, Fransanın MBDA raket sistemləri istehsalçısı ilə Ermənistana ”Mistral” hava hücumundan müdafiə sistemlərinin tədarükü barədə saziş imzalanıb.

Qeyd edək ki, Fransanın müdafiə naziri Sebastyan Lekornunun başçılıq etdiyi nümayəndə heyəti yaxın vaxtlarda Ermənistana səfər edəcək. Səfər zamanı Ermənistan hərbçilərinin hava hücumundan müdafiə sahəsində hazırlığı, zirehli texnikaların tədarükü müzakirə olunacaq. Naziri Fransanın silah şirkətlərinin nümayəndələri və deputatlar müşayiət edəcək.

Mövzu ilə bağlı “Unikal”a açıqlama verən politoloq Qabil Hüseynli bildirib ki, Fransa bölgədə yeni bir qarşıdurmanın olmasını istəyir. “Həm də, onların göndərdiyi silahlar müdafiə silahları deyil. Onların içərisində çox sayda hücum silahları var. Fransa sözün əsl mənasında Cənubi Qafqazda vəziyyəti qatıb-qarışdırmaq istəyir. Ermənistana təzyiq etməyə çalışır. Bununla da, sülh prosesini tamamilə pozmaq istəyir. Bu, çox alçaq bir fikirdir. Mənəviyyat və intellektual səviyyə baxımından yarımçıq olan Makron kimi tiplər belə işlərdə həmişə fəal olurlar. Makron sözün əsl mənasında Azərbaycan üçün qənim kəsilib. Hər vasitədən istifadə edərək ölkəmizin siyasi və iqtisadi maraqlarının qarşısında müxtəlif əngəllər yaratmağa çalışır. Bu yolla Azərbaycanın artan gücünün qarşısını almaq istəyir. Ümumiyyətlə, Fransa çox alçaq ölkədir. Başında duran adam da alçaqdır. Onlar digər alçaq ölkə olan Ermənistanla bacı-qardaş münasibətindədirlər”, - deyə o qeyd edib.

Qabil Hüseynli deyib ki, Fransa bir çox silah növlərini Ermənistana pulsuz verir: “Belə olan halda Azərbaycan dövləti mütləq şəkildə tədbir görməlidir. Bölgənin silahlandırılmasına dair beynəlxalq konvensiya var. O konvensiyada Avropa qitəsinin cinah sazişləri var. Həmin cinahlardan biri də Cənubi Qafqaza düşür. Həmin sazişə görə, Cənubi Qafqazda hər bir ölkənin nə qədər silaha malik olması barədə kvota müəyyən edilib. Ermənistan bu kvotanı dəfələrlə pozub və bölgədə işğalçı müharibə aparıb. Ona görə də, Azərbaycan bu məsələni Birləşmiş Millətlər Təşkilatının və digər beynəlxalq təşkilatların diqqətinə çatdırmalıdır”.

Politoloq İlyas Hüseynov isə hesab edir ki, Fransa çox çalışır ki, bu gün regionda sülhə, təhlükəsizliyə, sabitliyə zərbə vursun. Onun sölərinə görə, Qarabağ iqtisadi rayonunda ermənilər bölgəni könüllü sürətdə tərk ediblər.

”Bu, onların öz seçimləri olub. Digər tərəfdən, Ermənistana Fransa silahlarının verilməsi təhlükəsizlik üçün təhdidlər formalaşdırır, təhlükə yaradır. Bu, həm də Cənubi Qafqazda vəziyyəti gərginləşdirməyə hesablanıb. Fransa Ermənistan vasitəsilə Cənubi Qafqazda Türkiyə və Rusiyanın maraqlarına zərbə vurmaq istəyir. Bununla geopolitik mübarizə axtarışındadır. Onu da vurğulamaq lazımdır ki, Nikol Paşinyanla Makron arasında görüşdən olan kadrlara baxanda Fransa prezidentinin Paşinyanın üzərinə çətir qaldırması diqqət çəkir. Bu kifayət qədər geniş anlam verən haldır. Makron bununla sübut etməyə çalışır ki, Ermənistan və onun baş naziri Fransanın təhlükəsizlik çətiri altındadır. Bu, onu deməyə əsas verir ki, sanki siyasi, hərbi, ideoloji nöqteyi-nəzərdən Ermənistanın arxasında Fransa dayanır. Digər tərəfdən, Makronun söylədiyi fikirlər regional konfiqurasiyaya ziddir və hazırkı reallıqlara qarşıdır. Bu məqsədlə əlində olanlardan geniş istifadə edir. Bu da regional gərginliyin artmasına xidmət edir”, - deyə o qeyd edib.

Fransanın Ermənistanı yenidən silahlandırmasına münasibət bildirən millət vəkili Səməd Seyidov Bakıvaxtı.az-a deyib ki, rəsmi Parisin bir məqsədi var: “Fransa regiona müdaxilə edib, çaxnaşma salmaq, gərginlik yaratmaq istəyir. Onların addımlarında müharibəni yenidən alovlandırmaq niyyəti özünü nümayişkarənə şəkildə göstərir. Yəni, artıq maskalar yırtılır”. Deputat qeyd edib ki, Almaniyada Münix konfransından sonra Makron, eləcə də Fransanın faktiki olaraq səhnədən silinməsi aydın göründü. Bu üzdən Fransa Ermənistanın vasitəsilə özünü yenidən gündəmə gətirməyə cəhd edir: ”Bununla bağlı Azərbaycanın Xarici İşlər Nazirliyi artıq öz bəyanatını verib. Hesab edirəm ki, bu cəhdlər əbəsdir.Onlar heç bir nəticə əldə edə bilməyəcəklər. Ancaq onlar öz niyyətlərindən əl çəkmirlər. Bunun da mənası odur ki, Fransa Cənubi Qafqaza təsir imkanlarını tam şəkildə itirmək istəmir, ona görə də Ermənistandan bərk yapışıb. Bu ölkəni bir alət kimi istifadə edərək, regionda öz mövcudluğunu saxlamaq və təsir göstərmək niyyəti güdür”.

***Murad İbrahimli***



## Nazir Qarabağ Universitetinə görə rektorları topladı

***Fevralın 21-də STEAM İnnovasiya Mərkəzində Qarabağ Universiteti ilə bağlı görüş keçirilib.***

“Unikal” xəbər verir ki, görüşdə Prezident Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva, elm və təhsil naziri Emin Əmrullayev, ali təhsil müəssisələrinin rektorları, xaricdə yaşayan azərbaycanlı alimlər və digər qonaqlar iştirak ediblər.

Görüşdə Qarabağ Universitetinin fəaliyyət istiqamətləri, ixtisaslar barədə təqdimat nümayiş etdirilib, həmçinin universitetdə görülən işlər, hədəflər və gələcək planlar barədə məlumat verilib.

Görüş çərçivəsində universitetdə yerli və beynəlxalq təcrübənin tətbiqi imkanları müzakirə edilib. Qeyd olunub ki, Qarabağda tarixən mövcud olmuş təhsil ənənələrinin yaşadılması və regionun sosial-iqtisadi ehtiyaclarına uyğun yüksəkixtisaslı kadr tələbatının ödənilməsi dövlət başçısı tərəfindən qarşıya məqsəd kimi qoyulub.

Görüş iştirakçıları universitetin fəaliyyətinə dair tövsiyələrini bölüşüb, Qarabağın hər zaman ziyalılar yetişdirdiyini və hazırda görülən işlərin də bu ənənənin davamı olduğunu vurğulayıblar.

Görüşdə universitetin təhsilalanları və akedemik heyəti üçün fərqli, müasir mühitin formalaşdırılması, universitet kampusunda bütün xidmətlərin verilməsi, həmçinin elmi-tədqiqata əsaslanan yaradıcı layihələrin dəstəkləndiyi ekosistemin qurulmasına dair geniş müzakirələr aparılıb.

Qeyd edək ki, Qarabağ Universiteti 2024-2025-ci tədris ilindən fəaliyyətə başlayacaq. Universitetdə ilkin mərhələdə 1000 nəfərə yaxın tələbənin təhsil alması nəzərdə tutulur.

## Muxtar Babayev iki ölkənin səfiri ilə görüşdü

***Ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev Qazaxıstan Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri cənab Alim Bayel və Latviya Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri cənab Edqars Skuya ilə görüşlər keçirib.***

”Unikal” xəbər verir ki, görüşdə Qazaxıstan və Azərbaycan arasında ətraf mühitin mühafizəsi, gələcək əməkdaşlıq imkanları müzakirə edilib, eyni zamanda ölkəmizin bu il ev sahibliyi edəcəyi mötəbər tədbir olan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) hazırlıq tədbirləri ətrafında fikir mübadiləsi aparılıb.

Edqars Skuya ilə görüşdə Azərbaycanın bu il ev sahibliyi edəcəyi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) hazırlıq tədbirləri ətrafında fikir mübadiləsi aparılıb.

07_27 IYUl-QARA.qxd 2/23/2024 12:46 AM Page 5



# Prezident onları təltif etdi - Sərəncam



***Prezident İlham Əliyev Avtomobil yollarının tikintisi və istismarı sahəsində fərqlənən bir qrup şəxsin təltif edilməsi haqqında Sərəncam imzalayıb.***

"Unikal" xəbər verir ki, Sərəncamla avtomobil yollarının tikintisi və istismarı sahəsində əmək nailiyyətləri ilə fərqlənən aşağıdakı şəxslər təltif ediliblər:

**3-cü dərəcəli "Əmək" ordeni ilə**

Azadəliyev Azadəli Kəlbəli oğlu
Əkbərov Mübariz Hilal oğlu
Qocayev Əvəz İlyas oğlu
Mirzəbəyov Əhməd Əzizxan oğlu
Süleymanov Şahin Şahbaz oğlu

**"Tərəqqi" medalı ilə**

Babayev Elşən Əlican oğlu
Bəndəliyev Araz Arif oğlu
Cavadi Elman Hökməli oğlu
Əbilov Fazil İsmayıl oğlu
Əliyev Elxan Bulud oğlu
Əzizov Tahir İslam oğlu
İsgəndərov Sadıq Yaqub oğlu
Qasımov Həsən Əsrafül oğlu
Lələyev Bəhruz Rauf oğlu
Mehtiyev Tural Elşad oğlu
Mircavadov Eldar Mirməmməd oğlu
Niftəliyev Ustubat Heydər oğlu
Rəfiyev Sabir İbad oğlu
Səmədzadə Elnarə Fətulla qızı
Süleymanova Rübabə Şahbaz qızı
Yusubov Fərid Fikrət oğlu.

# "Sülh sazişinin imzalanması hələ də mümkündür" - Sahibə Qafarova

***Azərbaycan Milli Məclisi Asiya Parlament Assambleyasına sədrliyi iki il müddətinə öz üzərinə götürür.***

"Unikal" xəbər verir ki, bu barədə Azərbaycan parlamentinin sədri Sahibə Qafarova Bakıda keçirilən Asiya Parlament Assambleyasının 14-cü plenar sessiyasında çıxışı zamanı deyib. Spiker qeyd edib ki, qardaş Türkiyədən sədrliyi təhvil almaq qürurvericidir. Onun sözlərinə görə, bu gün humanitar böhranlar, münaqişələr, yoxsulluq, iqlim dəyişikliyi, ayrı-seçkiliyin artması, irqçilik, ksenofobiya və islamafobiya kimi günümüzün aktual problemləri də Asiya regionuna mənfi təsir göstərir: "Etiraf etmək lazımdır ki, bütün bu çağırışları tək-tək yox, yalnız birgə səylərlə kollektiv şəkildə həll etmək olar. Bu, regionumuzda sülh, təhlükəsizlik, sabitlik və davamlı inkişafa da aiddir. Təbii, insan resurslarını, müxtəlif sahələrdə əldə etdiyi nailiyyətləri nəzərə alaraq hesab edirəm ki, regionumuz bu çağırışların öhdəsindən gəlmək üçün kifayət qədər imkanlara malikdir".

"2020-ci ildə isə 44 günlük Vətən Müharibəsi nəticəsində



Azərbaycan öz ərazilərini 30 illik erməni işğalından azad edib, ərazi bütövlüyünü bərpa edib. Ötən ilin sentyabrında aparılan antiterror tədbirləri nəticəsində torpaqlarımızda separatizm kökü kəsilib, Azərbaycan bütün əraziləri üzərində suverenliyini bərpa edib. Bu gün Azərbaycan işğaldan azad edilmiş torpaqlarda böyük sərmayələr hesabına genişmiqyaslı bərpa və yenidənqurma işləri aparır.Keçmiş məcburi köçkünlər artıq öz evlərinə qayıtmağa başlayıblar. 2026-cı ilin sonuna qədər onların sayı 140 minə çatacaq. Azərbaycan da regionda uzunmüddətli sülh və sabitliyin təmin olunması üçün çox böyük səylər göstərir. Azərbaycanın Ermənistana münasibətlərin normallaşdırılması və sülh sazişinin imzalanması təklifi beynəlxalq hüququn əsas prinsiplərinə əsaslanır. 3 ildən artıq erməni siyasi və hərbi təxribatlarından sonra sülh sazişinin imzalanması hələ də mümkündür. Bir neçə gün əvvəl Münhen Təhlükəsizlik Konfransı çərçivəsində Azərbaycan prezidenti ilə Ermənistanın baş naziri arasında ikitərəfli görüş olub. Sülh müqaviləsi üçün danışıqlar və sərhədlərin delimitasiyası üzrə görüşlər üzrə əldə olunan razılaşmalar müsbət addım kimi qiymətləndirilə bilər".

Ümid edirik ki, Ermənistan yaxın zamanda təxribatlardan, qərəzli üçüncü tərəflərin iştirakından çəkinəcək. Bundan əlavə, Azərbaycanın ərazi bütövlüyünə qarşı öz Konstitusiyasında və digər qanunvericilik aktlarında öz əksini tapmış davam edən iddialarından əl çəkməlidir. Sülh sazişi üzrə birbaşa ikitərəfli danışıqları davam etdirməlidir. Regionda uzunmüddətli sülh və sabitliyin yeganə yolu qonşularla beynəlxalq hüququn norma və prinsipləri əsasında münasibətlərin qurulmasıdır", - deyə sədr bildirib.

# Ceyhun Bayramov Avropa İttifaqının nümayəndəsini qəbul edib



***Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarı qəbul edib.***

XİN-dən "Unikal"a verilən xəbərə görə, görüşdə tərəflər Azərbaycan-Avropa İttifaqı əlaqələrinin cari vəziyyətini, Azərbaycanla Ermənistan arasında normallaşma prosesinin və sülh sazişi layihəsi perspektivlərini müzakirə ediblər. Nazir Ceyhun Bayramov uzun sürən sabitlikdən sonra heç bir təhrikedici amil olmadan snayper atəşi nəticəsində Azərbaycan hərbi qulluqçusunun yaralanması ilə nəticələnən Ermənistan təxribatının sülh prosesinə zərbə vurmaq məqsədi daşıdığını diqqətə çatdırıb.

Sülh sazişi layihəsinə gəldikdə ölkəmizin növbəti şərhlərinin Ermənistan tərəfinə təqdim edildiyi və bu istiqamətdə danışıqlar prosesinin başlamasında maraqlı olduğumuz diqqətə çatdırılıb. Bununla yanaşı, Ermənistanın Konstitusiyasında, qanunvericilik aktlarında, beynəlxalq təşkilat və məhkəmələrdə ölkəmizin ərazi bütövlüyü və suverenliyinə qarşı davam edən iddialar bir daha xatırlanıb və bu iddiaların qəbuledilməz olduğu vurğulanıb.

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2000

# Rəsmi Bakı Makronun səsləndirdiyi iddiaları pislədi

***21 fevral 2024-cü il tarixində Fransa Respublikasının Prezidenti Emmanuel Makronun Parisdə Ermənistan Baş naziri ilə birgə mətbuat konfransı zamanı Azərbaycana qarşı səsləndirdiyi və Ermənistanı birtərəfli qaydada müdafiə edən əsassız iddialarını qətiyyətlə pisləyirik.***

"Unikal" xəbər verir ki, bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin bəyanatında deyilir. Bildirilib ki, 30 ilə yaxın müddətdə hüquqları pozulmuş, ərazilərindən didərgin düşmüş, kütləvi qırğınlara məruz qalmış azərbaycanlıların hüquqları barədə indiyə qədər heç bir şərh verməyən Fransanın öz istəkləri və heç bir zorakılıq tətbiq olunmadan Azərbaycan ərazilərini tərk etmiş ermənilərin hüquq və təhlükəsizliyindən danışması tamamilə yersizdir.

Bununla yanaşı, Alma-Ata bəyannaməsi və müəyyən xəritələr çərçivəsində ərazi bütövlüyünün vacibliyinə toxunan Fransa tərəfinin, nəyə görə məhz bu kimi razılaşmalara zidd olaraq 30 ilə yaxın müddətdə davam etmiş Ermənistan təcavüzünə və Azərbaycan ərazilərinin işğalına, habelə hal-hazırda Ermənistanın Azərbaycanın 8 kəndini hələ də işğal altında saxlamasına qarşı çıxmaması sualına aydınlıq gətirməsi daha faydalı olardı.

Heç bir təhrikedici amil olmadan 5 aya yaxın davam edən sabitliyi pozan Ermənistanın tənqid edilməsi əvəzinə, Azərbaycanın qeyri-proporsio



nal cavab tədbiri görməkdə təqsirləndirilməsi qəbuledilməzdir və bu kimi qərəzli yanaşmalara son qoyulmalıdır.

Fransanın bölgədə yeni gərginlik yaratmaq, sülh və sabitliyə mane olmaq istiqamətində yürütdüyü məkrli siyasətin heç bir nəticə verməyəcəyini bir daha bəyan edirik.

# "ABŞ Bakı və İrəvanı sülh müqaviləsi imzalamağa təşviq edir" - Metyu Miller

***"ABŞ Bakı və İrəvanı sülh müqaviləsi imzalamağa təşviq edir".***

"Unikal" xəbər verir ki, bunu ABŞ Dövlət Departamentinin sözçüsü Metyu Miller mətbuat üçün keçirdiyi brifinqdə bildirib.

Dövlət katibinin hələ də sülhün əlçatan olduğuna inanırmı sualına Miller müsbət cavab verib və əlavə edib ki, baş nazir Paşinyan və prezident Əliyevlə görüşündə onları bu istiqamətdə birgə işləməyə çağırıb.

"O, hələ də sülhün əlçatan olduğuna inanır və dövlət katibi bunu hər iki ölkənin liderləri ilə müzakirə edərək, onları qalan bir neçə problemi aradan qaldırmaq üçün birlikdə işləməyə çağırıb", - Miller mətbuat konfransında deyib.



# COP29-un Təşkilat Komitəsinin tərkibi genişləndirilib

***Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29), Kioto Protokolunun Tərəflər Görüşünün 19-cu sessiyasının və Paris Sazişinin Tərəflər Görüşünün 6-cı sessiyasının keçirilməsi ilə əlaqədar Təşkilat Komitəsinin tərkibində dəyişiklik edilib.***

"Unikal" xəbər verir ki, bu barədə Prezident İlham Əliyev sərəncam imzalayıb.

Təşkilat Komitəsinin tərkibinə aşağıdakı şəxslər daxil edilib:

"Xanlar Ağalarov - Dənizkənarı Bulvar İdarəsi İdarə Heyətinin sədri

Gülşən Axundova - "Qadın, İnkişaf, Gələcək" ictimai birliyinin sədri.

Səbinə Hacıyeva - Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi.

Mehriban İmanova - Azərbaycan Elm Fondunun İcraçı direktoru.

Məryəm Məcidova - Azərbaycan Respublikasının Gənclərin Gender Bərabərliyi Mərkəzi "Gender Hub" ictimai birliyinin sədri.




Natəvan Məmmədova - Azərbaycan Respublikasının Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının baş katibi

Nigar Məmmədova - "DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətinin direktoru

Şəbnəm Məmmədova - "SmartNation" platformasının təsisçisi.

İlqar Musayev - Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin rəisi

Samirə Musayeva - Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti rəisinin müavini.

Rövşən Nəcəf - Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti

Könül Nurullayeva - Azərbaycan Respublikası Milli Məclisinin deputatı.

Ruslan Sadıqov - Bakı "Ağ Şəhər" layihəsinin baş direktoru".

İnarə Vəliyeva - Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi İdarə Heyətinin sədri

Pərvanə Vəliyeva - "Sağlamlığa Xidmət" ictimai birliyinin icraçı direktoru, "Environmental Protection First" Koalisiyasının həmtəsisçisi

Fatma Yıldırım - Azərbaycan Respublikası Milli Məclisinin deputatı.

Təşkilat Komitəsinin tərkibindən Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin "Azəriqaz" İstehsalat Birliyinin baş direktoru Ruslan Əliyev çıxarılıb.

# Ombudsman Xocalı soyqırımının ildönümü ilə bağlı bəyanat yaydı

***Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyeva Xocalı soyqırımının 32-ci ildönümü ilə bağlı bəyanat yayıb.***

Ombudsman Aparatından "Unikal"a verilən məlumata görə, bəyanatda deyilir: "Bəşəriyyət tarixinin insanlıq əleyhinə yönəlmiş ən dəhşətli cinayətlərdən biri olan, Ermənistanın azərbaycanlılara qarşı həyata keçirdiyi etnik zəmində nifrət və soyqırımı siyasətini sübut edən Xocalı soyqırımından 32 il ötür.

Ermənistan silahlı qüvvələri tərəfindən keçmiş sovet qoşunlarının 366-cı motoatıcı alayının iştirakı ilə 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalı şəhəri işğal edilmiş, yerli əhaliyə qarşı soyqırımı cinayəti törədilmiş, şəhər yerlə yeksan olunmuşdur.

Bu soyqırımı hadisəsində fundamental insan hüquqları, beynəlxalq humanitar hüququn norma və prinsipləri kobud şəkildə pozulmuş, 63 uşaq, 106 qadın və 70 ahıl olmaqla, 613 Xocalı sakini amansızlıqla qətlə yetirilmiş, 8 ailə tamamilə məhv edilmiş, 25 uşaq hər iki valideynini, 130 uşaq isə valideynlərindən birini itirmişdir. 76 uşaq olmaqla, 487 nəfər ağır yaralanmışdır. Qətlə yetirilmiş şəxslərdən 56 nəfəri xüsusi qəddarlıqlarla öldürülmüş, diri-diri yandırılmış, başının dərisi soyulmuş, digər dəhşətli işgəncələrə məruz qalmışdır. Eyni zamanda, həmin vaxt girov götürülmüş 1275 sakindən 150 nəfərin, o cümlədən 68 qadının və 26 uşağın taleyi hələ də naməlum olaraq qalmaqdadır.

Xocalı qətliamında "Müharibə qurbanlarının müdafiəsi haqqında" Cenevrə konvensiyalarının, həmçinin "Soyqırımı cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında", "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə", "İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında", "Uşaq hüquqları haqqında" konvensiyaların, "Mülki və siyasi hüquqlar haqqında", "İqtisadi, sosial və mədəni hüquqlar haqqında" beynəlxalq paktların müddəaları, xüsusilə insanların yaşamaq hüququ kobud şəkildə pozulub.



Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin təşəbbüsü ilə 30 il əvvəl Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən Xocalı soyqırımına ilk siyasi-hüquqi qiymət verilib və 26 fevral tarixi Xocalı Soyqırımı Günü kimi elan edilib.

Heydər Əliyev Fondunun təşkilatçılığı ilə Xocalı soyqırımının dünya ictimaiyyəti tərəfindən tanınması, bu cinayət əməlinə hüquqi və siyasi qiymətin verilməsi məqsədilə davamlı olaraq həyata keçirilən "Xocalıya ədalət" kampaniyası bu soyqırımı hadisəsi ilə bağlı beynəlxalq səviyyədə məlumatlılığın artırılması, kütləvi qırğınlara, etnik təmizləmə, irqi, dini və etnik ayrı-seçkilik hallarına qarşı böyük müqavimətin göstərilməsi baxımından çox mühüm əhəmiyyət kəsb edir. Kampaniya çərçivəsində həyata keçirilən fəaliyyət nəticəsində 17 dövlətin qanunvericilik orqanı, ABŞ-ın 24 ştatı, eləcə də İslam Əməkdaşlıq Təşkilatı və Türk Dövlətləri Təşkilatı tərəfindən bu qəddar qətliam pislənilmiş, soyqırımı kimi qiymətləndirilib, bununla bağlı müvafiq qərar və qətnamələr qəbul olunub.

İkinci Qarabağ müharibəsindən və ötən il həyata keçirilmiş lokal xarakterli antiterror tədbirlərindən sonra işğaldan azad edilmiş ərazilərdə aparılan tikinti-quruculuq, axtarış-qazıntı işləri zamanı Ağdam, Şuşa, Xocavənd, Füzuli, Kəlbəcər ərazilərinə, həmçinin bir müddət əvvəl Xocalı rayonunun Əsgəran qalasının yaxınlığında kütləvi məzarlıqların tapılması, həmin məzarlıqlardakı insan qalıqlarının üzərində işgəncə izlərinin aşkarlanması Xocalıda törədilmiş soyqırımı zamanı soydaşlarımızın amansızlıqla qətlə yetirildiklərini, azərbaycanlılara qarşı soyqırımı siyasətinin aparıldığını bir daha təsdiqləyir.

Tərəfimizdən dəfələrlə müraciət edilməsinə baxmayaraq, Ermənistan itkin düşmüş dörd minə yaxın şəxsin taleyinin müəyyənləşdirilməsi istiqamətində hər hansı bir addım atmır, işgəncələrə məruz qoyulmaqla qətlə yetirilmiş soydaşlarımızın basdırıldığı kütləvi məzarlıqlar barədə məlumat vermir.

Beynəlxalq təşkilatlar, dünya ictimaiyyəti XX əsrin ən böyük qətliamlarından biri sayılan Xocalı soyqırımına hüquqi qiymət verməli, insanlıq əleyhinə yönəlmiş bu dəhşətli cinayət əməlinin törədilməsində təqsirkar şəxslər ədalət mühakiməsi qarşısında cavab verməlidir".



# Samir Rzayev AZAL-ın prezidenti təyin edildi

***Prezident İlham Əliyev Samir Musa oğlu Rzayevin "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin birinci vitse-prezidenti vəzifəsindən azad edilməsi haqqında Sərəncam imzalayıb.***

"Unikal" xəbər verir ki, dövlət başçısının digər sərəncamı ilə, Samir Musa oğlu Rzayev "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin prezidenti təyin edilib.

# Ermənistan Kamil Zeynallının ekstradisiya ərizəsini Rusiya Baş Prokurorluğuna göndərdi

***Xəbər verdiyimiz kimi, Ermənistan Daxili İşlər Nazirliyi axtarışa verdiyi Kamil Zeynallı ilə bağlı prosesləri davam etdirir.***

"Unikal" erməni KİV-ə istinadən xəbər verir ki, bu gün Ermənistan DİN Baş Prokurorluğa Kamil Zeynallının Ermənistana təhvil verilməsi ilə bağlı sənədlər paketini təhvil verib.

Sözügedən paket Ermənistan Baş Prokurorluğu tərəfindən tərtib edilmiş ekstradisiya ərizəsi ilə birlikdə bir neçə saat əvvəl Rusiya Federasiyasının Baş Prokurorluğuna göndərilib.

Qeyd edək ki, idmançı artıq sərbəst buraxılıb, hazırda Vətəndədir.

# İşdən çıxarılan məmur Naxçıvan Şəhər İcra Hakimiyyətini məhkəməyə verdi

***Naxçıvan Şəhər İcra Hakimiyyəti başçısının sabiq müavini - Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin sabiq müdiri Səfər Siyafər oğlu Əhmədov həmin qurumu məhkəməyə verib.***

"Unikal"ın məlumatına görə, S.Əhmədov inzibati orqanların aktları və hərəkətləri (hərəkətsizliyi) ilə əlaqədar mübahisələr - digər məsələlərlə bağlı Naxçıvan Şəhər İcra Hakimiyyətinə qarşı iddia qaldırıb.

İş Naxçıvan Muxtar Respublikasının İnzibati Məhkəməsinin hakimi Tural Əliyevin icraatındadır.

İşə 4 aprel 2024-cü il tarixində baxılacaq.

Qeyd edək ki, Səfər Əhmədov 2023-cü ilin avqust ayında vəzifəsindən azad edilib.

***Murad İbrahimli***



## XİN Makronun Azərbaycana qarşı səsləndirdiyi iddiaları pislədi

***21 fevral 2024-cü il tarixində Fransa Respublikasının Prezidenti Emmanuel Makronun Parisdə Ermənistan Baş naziri ilə birgə mətbuat konfransı zamanı Azərbaycana qarşı səsləndirdiyi və Ermənistanı birtərəfli qaydada müdafiə edən əsassız iddialarını qətiyyətlə pisləyirik.***

"Unikal" xəbər verir ki, bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin bəyanatında deyilir.

Qeyd olunub ki, 30 ilə yaxın müddətdə hüquqları pozulmuş, ərazilərindən didərgin düşmüş, kütləvi qırğınlara məruz qalmış azərbaycanlıların hüquqları barədə indiyə qədər heç bir şərh verməyən Fransanın öz istəkləri və heç bir zorakılıq tətbiq olunmadan Azərbaycan ərazilərini tərk etmiş ermənilərin hüquq və təhlükəsizliyindən danışması tamamilə yersizdir.

"Bununla yanaşı, Alma-Ata bəyannaməsi və müəyyən xəritələr çərçivəsində ərazi bütövlüyünün vacibliyinə toxunan Fransa tərəfinin, nəyə görə məhz bu kimi razılaşmalara zidd olaraq 30 ilə yaxın müddətdə davam etmiş Ermənistan təcavüzünə və Azərbaycan ərazilərinin işğalına, habelə hal-hazırda Ermənistanın Azərbaycanın 8 kəndini hələ də işğal altında saxlamasına qarşı çıxmaması sualına aydınlıq gətirməsi daha faydalı olardı.

Heç bir təhrikedici amil olmadan 5 aya yaxın davam edən sabitliyi pozan Ermənistanın tənqid edilməsi əvəzinə, Azərbaycanın qeyri-proporsional cavab tədbiri görməkdə təqsirləndirilməsi qəbuledilməzdir və bu kimi qərəzli yanaşmalara son qoyulmalıdır. Fransanın bölgədə yeni gərginlik yaratmaq, sülh və sabitliyə mane olmaq istiqamətində yürütdüyü məkrli siyasətin heç bir nəticə verməyəcəyini bir daha bəyan edirik".

## İsmayıl Vəliyev və digərlərinin cəzası azaldıldı

***Neftçalanın sabiq icra başçısı İsmayıl Vəliyev və onunla birgə məhkum edilən şəxslərin kassasiya şikayətlərinə baxılıb.***

Ali Məhkəmədə keçirilən iclasda apellyasiya instansiyasının qərarı dəyişdirilib. Qərara əsasən, İsmayıl Vəliyevin cəzası 6 il 2 aya, Vurğun Əkbərovunku 6 ilə, Əjdər Kərimovun cəzası 5 il 10 aya, Vüqar Nağıyevinki 5 il 8 aya, Telman Zahidov və Anar Cəfərovun cəzaları 5 il 6 aya, Gültəkin Sadıqovanın cəzası isə 4 il 6 aya endirilib.

Qeyd edək ki, təqsirləndirilən şəxslər Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən həbs ediliblər.

Şirvan Apellyasiya Məhkəməsinin yekun qərarı ilə İsmayıl Vəliyev 9 il 6 ay, Əjdər Kərimov və digərləri 8 il, Gültəkin Sadıqova 6 il müddətinə azadlıqdan məhrum ediliblər.

# "Hökumət yenidən formalaşıb, ola bilər müəyyən problemlər olsun"

## Vahid Əhmədov: "Bazarlara normal nəzarət mexanizmi həyata keçirilsə, Rəqabət Məcəlləsi normal işləsə, inflyasiyaya qarşı xüsusi tədbirlər proqramı yerinə yetirilsə, qiymət artımının qarşısı müəyyən qədər alınacaq"

***Milli Məclisin deputatı Vahid Əhmədov "Unikal"a müsahibə verib. O, dolların bahalaşma ehtimalından, son vaxtlar qiymətlərin artmasından, büdcəyə yenidən baxıla biləcəyindən, quru sərhədlərin nə vaxt açılacağından, sosial və iqtisadi sahədə hansı yeniliklərin olacağından danışıb.***

***-Vahid müəllim, bu il başlayandan hərraclarda dollara olan tələbin yüksəldiyini görürük. Sizcə 2024-cü ildə dolların bahalaşması gözlənilirmi?***

-Düşünürəm ki, dollar bu il üçün hazırkı səviyyədə qalacaq. Amma dünyada baş verən siyasi, iqtisadi proseslər gec-tez dolların müəyyən qədər bahalaşmasına səbəb olacaq. Hazırda isə neftin qiyməti yüksəkdir, ehtiyatlarımız var. 2024-cü ildə dolların bahalaşması ilə bağlı qorxu yoxdur. Əlbəttə, hərraclarda dollar alışı kifayət qədər çoxalıb. Bu ola bilər ki, malların alqı-satqısının dollarla olması ilə bağlıdır. Ona görə ki, Azərbaycana idxal kifayət qədər artıb. Hər halda 2024-cü ildə dolların bahalaşmasını gözləmirəm.

***-Son vaxtlar xeyli məhsulun qiymətində bahalaşma var və bu proses davam edir. Qiymət artımlarının belə sürətlə olmasının səbəbi nədir?***

-Verilən proqnoza görə, bu il üçün 5 fazidən bir az artıq inflyasiya gözlənilir. Ciddi qiymət artımı proqnozu verilməyib. Hökumət yenidən formalaşıb, ola bilər müəyyən problemlər olsun. Amma hökumət bazarlara normal nəzarət mexanizmi həyata keçirə bilsə, qəbul etdiyimiz Rəqabət Məcəlləsi normal işləsə, bazarda antiinhisar tədbirləri görülsə, inflyasiyaya qarşı xüsusi tədbirlər proqramı yerinə yetirilsə, qiymət artımının qarşısı müəyyən qədər alınacaq. Elə məhsullar var ki, xaricdən idxal olunduğu üçün qiymət artımına səbəb olur. Bu il də xaricdən idxalın artımı nəzərdə tutulub. Bunun hamısı ona görədir ki, biz xaricdən çox məhsul idxal edirik. Əsas ticarət tərəfdaşlarımız da Türkiyə, Rusiya və başqa ölkələrdir. Bu ölkələrdə də kifayət qədər inflyasiya gedir. İlk növbədə idxal etdiymiz məhsulların strukturunda dəyişiklik etmək lazımdır. Elə məhsullar var ki, onu Azərbaycanda istehsal etmək olar. Təəssüflər olsun ki, hələ o səviyyəyə gəlib çatmamışıq. Doğrudur, müəyyən məhsulların istehsalında artımlar var. Bunu geniş miqyasda həyata keçirmək lazımdır ki, regionlarda bizə lazım olan məhsulları istehsal edək. Qeyri-neft sektorunun ixracı aşağıdır. Əsas yeri neft-qaz ixracı tutur. Eyni zamanda, İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinə böyük səlahiyyətlər vermişik. Onlar ciddi işlər görməlidir ki, süni qiymət artımına yol verilməsin.

***-Prezident İlham Əliyev Milli Məclisdə andiçmə mərasimində çıxışı zamanı qeyd edib ki, yeni dövr başlayır və bu dövrün böyük nailiyyətləri olacaq. Sizcə, bu dövrdə sosial və iqtisadi sahədə hansı yeniliklər olacaq?***

-Elə məsələlər var ki, bizi çox narahat edir. Həmişə çıxışlarımda da bu barədə məsələ qaldırmışam. Bizi ən çox narahat edən məsələ Azərbaycanda iş yerlərinin olmamasıdır. Əgər iş yerləri olarsa, səhər işə gələn insan axşam ailəsinə bir parça çörək apararsa, problem olmayacaq. Baş nazirin olduğu iclasda da təklif etdim ki, 14 iqtisadi rayon üzrə iş yerlərinin açılması ilə bağlı xüsusi proqram tərtib edək. Heç olmasa biz bilək ki, 2-3 ildən sonra rayonlarda iş yerləri ilə ələqədar problem olmayacaq. Hər rayonun özünün spesifikası var. Bəzi rayonda sənaye, digərində meyətərəvəzçiliyi inkişaf etdirmək olar. Bu baxımdan, qeyri-neft sektorunun inkişafına diqqət yetirməliyik. Prezident İlham Əliyev andiçmə mərasimində çıxışı zamanı əsas məsələ kimi iş yerlərinin açılmasından danışdı. Bu, önəmli məsələdir. Bunu həll edə bilsək digər sosial problemlər öz həllini tapacaq.

***-Yuxarıda qeyd etdik ki, qiymət artımları var. May ayında büdcəyə yenidən baxılarsa, qiymət artımları fonunda maaş və pensiyalar yenidən artırıla bilərmi?***

-Büdcəyə hər zaman baxıla bilər. Bu, neftin qiymətindən asılıdır. Neft və qazın qiymətindən əlavə gəlirlər daxil olacaqsa, büdcəyə yenidən baxıla bilər. Hələ yeni ilin ikinci ayı başa çatmaq üzrədir. Baxaq görək, qiymət məsələsində stabillik olacaq ya yox. Əlbəttə, inflyasiya proqnozlaşdırılan 5 faizdən yüksək olacaqsa, maaş, pensiya və müavinətlərə yenidən baxılmalıdır. Hazırda isə neftin qiyməti yüksəkdir.

***-Ən çox müzakirə olunan məsələlərdən biri də quru sərhədləri ilə bağlıdır. Məlum olduğu kimi, Azərbaycanda xüsusi karantin rejimi 2 aprel qədər uzadılıb. Necə düşünürsüz, bundan sonra quru sərhədlər açıla bilərmi?***



-Həmişə tərəfdarı olmuşam ki, heç olmasa bir koridor açılsın. Bu baxımdan, bir neçə dəfə təklif etmişəm ki, strateji müttəfiqimiz olan Gürcüstandan bir koridor açaq. Xüsusi rejim tətbiq edək və insanlar oradan gedib-gələ bilsinlər. Hamının təyyarədən istifadə etmək imkanı yoxdur. Sərhədyanı zonaların hamısı bağlıdır. Orada yaşayan əhali daim qonşu dövlətdən müəyyən məhsullar gətirirdilər. Amma quru sərhədlərin açılması gedən proseslərdən asılıdır. Hazırda dünyada gedən proseslər bölgədə ciddi problemlər yaradıb. Hətta artıq III Dünya müharibəsinin anonsu verilir. Bu baxımdan heç kim təminat verə bilməz ki, sabah və ya bir həftədən sonra necə olacaq. Ona görə də dövlətin təhlükəsizliyi bizim üçün önəmli və bir nömrəli məsələdir. Əgər bölgədə stabillik olacaqsa quru sərhədlər açılacaq. Sözsüz ki, sərhədlər daim bağlı qala bilməz. Bu həm iqtisadiyyatımıza, həm də əhalimizə ziyandır. Bu məsələlərə dövlət tərəfindən baxılır.

***Anar Kəlbiyev***

07_27 IYUI-QARA.qxd 2/23/2024 12:46 AM Page 8



# Oliqarxlara növbəti sərt ittiham

## Həftənin sualı: onlar fermerlər üçün nəzərdə tutulan girovsuz kreditlərə də göz dikiblər?

***Azərbaycanda keçirilən Aqrar Biznes Festivalları çərçivəsində kredit yarmarkaları təşkil ediləcək. Bunu Kənd Təsərrüfatı Nazirliyinin Aqrar İnnovasiyalar Mərkəzinin direktoru Anar Cəfərov fevralın 20-də Bakıda keçirilən Beynəlxalq Aqro Biznes Forumunda bildirib.***

Rəsmi məlumata görə, 2023-cü ildə Sahibkarlığın İnkişafı Fondunun xətti ilə fermerlərə kənd təsərrüfatı məhsullarının istehsalı və emalı üçün 77 milyon manat güzəştli kredit ayrılıb. Kənd Təsərrüfatı Nazirliyi isə 2023-cü ilin yanvar-sentyabr aylarında 5 min 473 kənd təsərrüfatı texnikası və avadanlığı üçün 43.9 milyon manat kredit ayrıldığını açıqlayıb. Bundan əlavə, 1401 sahibkara 16.8 milyon manat məbləğində güzəştli kreditlər verildiyi bildirilir.

Cəlilabad rayonunda fermerlərdən biri isə "Turan"a bildirib ki, dəfələrlə həm güzəştli, həm də biznes krediti üçün müraciətlər edib: "Kartof əkini ilə məşğulam. Torpaq sahəm o qədər də böyük olmasa da, təsərrüfatımı inkişaf etdirməyə öz gücüm çatmır. Kredit üçün banklara müraciət elədim, o qədər sənədin lazım olduğunu dedilər ki, qorxdum" ("Turan").

O, lazım olan sənədləri toplamaq üçün xeyli bürokratik əngəllərin olduğunu qeyd edib: "Sənədlərdən başqa da girovun olmasını istəyirlər, faizlər də yüksəkdir. Ona görə razı olmadım".

Bu məsələ əslində Azərbaycanda təzə deyil. 2019-cu ildə Azərbaycanda kredit yarmarkaları artıq təşkil olunmuşdu. Yarmarkalar Qazax, Xaçmaz, Şəmkir, Zaqatala, Masallı, Sabirabad rayonlarında keçirilmişdi. Rəsmi məlumata görə, orada müvəkkil kredit təşkilatı olan 16 bank və bank olmayan kredit təşkilatının yerli filiallarının nümayəndələri iştirak edib.




Aqrar Kredit və İnkişaf Agentliyindən bildirilib ki, Aqrar Biznes Festivalları vasitəsilə fermerlərə kifayət qədər böyük məbləğdə kreditlər təklif olunur: "Bununla da fermerlərin kreditlərə daha asan əlçatanlığı təmin ediləcək". Agentlikdən kredit yarmarkalarının ən azı rübdə bir dəfə təşkil olunmasının nəzərdə tutulduğu vurğulanıb.

Lakin fermerlərlə yanaşı ekspertlərdən də mövzu ilə bağlı fərqli iddialar var. Məsələn, kənd təsərrüfatı məsələləri üzrə ekspert Vahid Məhərrəmov bildirib ki, yarmarkalarda fermerlərə girov qoymadan ciddi kredit resursu təklif ediləcəyinə inanmır: "Mən araşdırma apardım və bəlli oldu ki, vəzifəli şəxsin bir zəngi ilə heç bir girov tələb edilmədən onun yaxın qohumuna kredit resursu verilib. Ayrılan vəsait də o qədər çox deyil ki, onu hamıya təklif etsinlər. Az həcmdə olduğu üçün məsələni girovdan da üstün olan bir zəng ilə həll edirlər. Ümumiyyətlə, son vaxtlar daha çox o sahəyə maraq göstərən oliqarx məmurlardır. Oliqarx məmurlar girov qoymadan həmin kredit resursundan adi kəndlilərdən daha asanlıqla bəhrələnirlər".

Bir sıra ekspertlərin sözlərinə görə isə ümumiyyətlə, istər girovlu olsun, istərsə girovsuz, fermerlər üçün ayrılan kredit resurslarının faiz dərəcəsi reallıqda çox yüksəkdir: "Qonşu Gürcüstanla müqayisə edəndə orada kənd təsərrüfatına ayrılan kreditlərin faizləri bizdən iki dəfə azdır. Orada həmin rəqəm 6-7 faizdirsə, bizdə bu, 20 faizə yaxındır".

Mütəxəssislərin fikrincə, faizlərin yüksəkliyi əksər fermerləri həmin kreditləri almaqdan çəkindirir. Bunun özü də kənd təsərrüfatında inhisarçılığa meyllənən oliqarxların işinə yarayır. Daha dəqiq desək, orta və kiçik fermerlər onların əl-ayağına dolaşmamış olur.

Onu da deyək ki, yola salmaq üzrə olduğumuz həftə Azərbaycanda kartof əkini sahələrinin ilbeil azalması məsələsi gündəmə gəlib. Bu barədə danışan sahibkar Kənan Salmanlı deyib ki, keçən il fermerlər çox ziyana düşüblər. Sitat: "Məhsulu xarici bazara çıxara bilmədiyimizə görə, kartofun qiyməti ucuzlaşdı, nəticədə bizə təxminən 30-40 min manat ziyan dəyib. Hazırda bütün fermerlərin vəziyyəti eynidir. Bunun ən böyük səbəbi məhsul satışının düzgün təşkil edilməməsi, işbazların, dəllaların bazarı öldürməsidir. Fermerlər yiyəsiz kimi ortada qalıb".

Ekspertlər bu vəziyyətdən çıxış yolunu da hökumətin ucuz kreditlər təklif etməsində görür. Bildirilir ki, belə kreditlər fermerlərə birləşib özləri üçün saxlama anbarı tikmək fürsəti verərdi. Bu isə toplanan məhsulun xarab olmasının qarşısını alardı. Qeyd edək ki, bəzi hesablamalara görə, Azərbaycanda, məsələn, kartofun 25% sahədə, 20%-i primitiv şəkildə saxlanan anbarlarda xarab olur.

Göründüyü kimi, kənd təsərrüfatında güzəştli və girovsuz kreditlərə bir çox baxımdan həqiqətən böyük ehtiyac var. Belə kreditlər ölkə fermerlərini çox ciddi çətinliklərdən qurtarardı, əlbəttə, oliqarx məmurların tamahı imkan versə!..

***Sənan Mirzə***

# Bakıda diplomatlar arasında gərginlik

## Nurman Kurtulmuş: "Rusiyanın dünya ilə müharibə apardığını deməmişəm"

***"Nurman Kurtulmuş qeyd etdi ki, Rusiya bütün dünya ilə müharibə aparır, amma bu belə deyil. Rusiya yalanla, Qərbin ikili standartları ilə mübarizə aparır".***

"Unikal" xəbər verir ki, bu fikirləri Rusiya Federasiyasının Dövlət Dumasının sədr müavini Petr Tolstoy fevralın 22-də Bakıda keçirilən Asiya Parlament Assambleyasının 14-cü plenar sessiyasında bildirib.

"Biz buradan qalib çıxacağıq. Biz milli təhlükəsizliyimizi təmin edirik. Necə ki, bunu 1945-ci ildə Berlində təmin etmişik, eləcə də Kiyevdə təmin edəcəyik. Biz ABŞ-nin diqtəsi ilə idarə olunan dünya nizamını qəbul etməyəcəyik. Qərbin son 500 ildəki hegemoniyasının sonu gəlib", - deyə Petr Tolstoy vurğulayıb.

TBMM sədri Nurman Kurtulmuş isə qeyd edib ki, tərcümə xətası olub: "Rusiyanın bütün dünya ilə müharibə apardığını deməmişəm. Davam edən Ukrayna-Rusiya müharibəsinin artıq Qərblə aparılan müharibəyə çevrildiyini demişəm. Türkiyə hər zaman sülhdən və diplomatiyadan yana olub. Biz hər zaman danışıqlarda vasitəçi olmağa hazırıq".

Milli Məclisin spikeri Sahibə Qafarova da bunun tərcümə xətası olduğunu, Nurman Kurtulmuşun belə bir şey demədiyini vurğulayıb.





# Mövlud Süleymanlı dəfn olundu - Prezident və xanımı əklil göndərdi

***Ötən gün 81 yaşında vəfat edən Əməkdar incəsənət xadimi, Xalq yazıçısı Mövlud Süleymanlı Şamaxıda dəfn olunub.***

Xalq yazıçısının cənazəsi günorta saatlarında Şamaxıya gətirilib, rayonun Kərkənc kəndində torpağa tapşırılıb.

Dəfn mərasimində rayon icra hakimiyyətinin rəhbərliyi, yazıçının ailə üzvləri, qələm dostları, eləcə də ictimayyət nümayəndələri, jurnalistlər iştirak ediblər.

Yazıçının həyat və yaradıcılığından söhbət açılıb, barəsində xoş xatirələr danışılıb.

Sonra yazıçının vəsiyyətinə uyğun olaraq Kərkənc kənd qəbiristanlığında anasının qəbri yanında dəfn edilib.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Azərbaycanın Xalq yazıçısı Mövlud Süleymanlının dəfn mərasiminə əklil göndərib. Əklil mərhum yazıçının məzarı üstünə qoyulub.

# 5 ailə üzvünü öldürən Əhməddən xəbər var

***Bakıda ailəsinin 5 üzvünü amansızlıqla qətlə yetirməkdə şübhəli bilinən 1999-cu il təvəllüdlü Əhməd Əhmədov hazırda Bakı İstintaq Təcridxanasındadır və orada saxlanılır.***

"Unikal" xəbər verir ki, bu barədə APA məlumat yayıb. Bildirilir ki, Əhməd Əhmədov barəsində ekspertiza keçirilməsi ilə bağlı təqdimat bu gün məhkəməyə daxil olub. Təqdimata yaxın müddətdə Xətai rayon Məhkəməsində baxılacaq.

Məhkəmənin qərarına əsasən, barəsində tibbi-psixi ekspertizanın keçirilməsi ilə bağlı Əhməd Əhmədov Respublika Psixiatriya Xəstəxanasına göndəriləcək və orada bir müddət müşahidə altında saxlanılacaq.

Qeyd edək ki, Xətai Rayonu ərazisində atasını, anasını, qardaşını, bacısını və onun körpə övladını amansızlıqla qətlə yetirməkdə ittiham edilən Əhməd Əhmədovun psixi xəstə olması barədə məlumatlar yayılıb və onun daha əvvəl də ixtisaslaşmış müəssisədə müalicə aldığı bildirilib.

Həmçinin Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti 2020-ci ilin iyul çağırışına hazırlıqla əlaqədar çağırışçılar üçün nəzərdə tutulmuş bütün zəruri müayinələrdən keçirilib və göndəriş əsasında Ə.Əhmədovun 1 nömrəli "Respublika Psixiatriya Xəstəxanasına" əlavə tibbi müayinəyə göndərilməsini açıqlayıb. Həmin vaxt Ə.Əhmədova "Şizofrenəbənzər pozuntu" diaqnozu təyin edilib. Nəticədə Ə.Əhmədov həm dinc dövrdə, həm müharibə dövründə hərbi xidmətə yararsız hesab edilib.

07_27 IYUl-QARA.qxd 2/23/2024 12:46 AM Page 9



# Dövlət orqanlarında işə qəbul üçün daxili müsahibə elan edilir



***Fevralın 22-də 31 dövlət orqanında inzibati vəzifələrin 2-7-ci təsnifatına uyğun olan 83 vəzifənin tutulması məqsədilə daxili müsahibə elanı verilib.***

Bu barədə "Unikal"a Dövlət İmtahan Mərkəzindən məlumat verilib. Bildirilib ki, daxili müsahibə elan edilən vəzifələrin 5-i inzibati vəzifələrin ikinci təsnifatına, 3-ü üçüncü təsnifatına, 27-si dördüncü təsnifatına, 18-i beşinci təsnifatına, 7-si altıncı təsnifatına və 23-ü yeddinci təsnifatına aiddir. Daxili müsahibəyə çıxarılanları üçün dövlət orqanları arasında ən çox vakant vəzifə Elm və Təhsil Nazirliyi (24 vəzifə) tərəfindən təqdim olunub. Daxili müsahibəyə çıxarılan vəzifələr arasında ən yüksək vəzifə inzibati vəzifələrin 2-ci təsnifatına uyğun olan Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin İqtisadi məsələlər şöbəsinin müdiri vəzifəsidir.

Eyni zamanda, daxili müsahibə elan edilən vəzifələrdən 8-i Naxçıvan Muxtar Respublikasının 6 dövlət orqanı tərəfindən, 12-si isə 10 yerli icra hakimiyyəti orqanı tərəfindən təqdim edilib.

Qanunvericiliyin tələblərinə uyğun olaraq, daxili müsahibə üzrə sənəd qəbulu elektron qaydada həyata keçirilir. Bu, vətəndaşların rahatlığının təmin edilməsi, vaxt itkisinin və maliyyə xərclərinin qarşısının alınması, habelə Dövlət İmtahan Mərkəzi tərəfindən göstərilən dövlət xidmətlərinin daha əlçatan olmasına imkan verir.

Daxili müsahibədə aşağıda qeyd edilən kateqoriyaya aid şəxslər iştirak hüququna malikdir:

- Vakant vəzifəni təqdim etmiş dövlət orqanında inzibati vəzifələrdə qulluq keçən və inzibati vəzifələrin təsnifatına uyğun ixtisas dərəcəsi olan dövlət qulluqçuları;
- Dövlət orqanının ləğvi, dövlət qulluqçularının sayının və ya ştatlarının ixtisarı ilə əlaqədar daxili müsahibə elan edilən dövlət orqanında ehtiyat kadr kimi saxlanılan şəxslər;
- 1-3-cü kateqoriya dövlət orqanlarında inzibati vəzifələrin birinci - üçüncü təsnifatlarına uyğun olan vəzifələrə, habelə 2-ci kateqoriya dövlət orqanlarına aid mərkəzi icra hakimiyyəti orqanlarında, onlara bərabər tutulan orqanlarda (Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiyanın Katibliyi) inzibati vəzifələrin dördüncü təsnifatına uyğun olan vəzifələrə (struktur bölmə rəhbərləri və həmin dövlət orqanı rəhbərinin müşavirləri, köməkçiləri) iddia edən şəxslər.

Daxili müsahibədə iştirak etmək istəyən namizədlər martın 7-dək Mərkəzin internet portalında "Dövlət qulluğu üzrə müraciət Forması"nı doldurmaqla qeydiyyatdan keçməlidirlər.

# Kamil Zeynallı haqqında həbs qətimkan tədbiri seçilibmiş - Ermənistan DİN

***Fevralın 21-i günortadan sonra Ermənistan Daxili İşlər Nazirliyi Rusiyadan Ermənistan tərəfindən axtarışda olan azərbaycanlı Kamil Zeynallının tapılması ilə bağlı rəsmi məktub alıb.***

"Unikal" erməni KİV-ə istinadən xəbər verir ki, bu barədə Daxili İşlər Nazirliyinin mətbuat katibi Narek Sarkisyan açıqlayıb.

Qeyd olunub ki, onlardan axtarış faktının yenidən təsdiqlənməsi xahiş olunub: "Buna cavab olaraq axtarışa başlayan bölmə dərhal sözügedən şəxsin dövlətlərarası axtarışda olduğunu təsdiqləyib və bundan sonra həbs qətimkan tədbiri seçilib".

Sözçü onu da qeyd edib ki, Kamil Zeynallının azadlığa buraxılmasına baxmayaraq, Daxili İşlər Nazirliyi ekstradisiya protokolunda nəzərdə tutulmuş sənədlər paketini hazırlayıb və onların Rusiya hüquq-mühafizə orqanlarına təhvil verilməsi və gələcək ekstradisiya prosesi işlərinin təşkilində zəruri tədbirlərin görülməsi üçün Ermənistanın Baş Prokurorluğuna təqdim olunacaq.

***Ağarza Elçinoğlu***

# Əli Bayramovdan hesabı soruşulmayan milyonlarla manatın aqibəti...

## Sabiqlərin izi ilə: vəzifədən müəmmalı şəkildə ayrılan sabiq iri məmuru cinayət mühakiməsindən kimlər xilas edib?



***"Unikal" qəzeti keçmiş məmurların hazırda harada və nə işlə məşğul olduqları barədə silsilə yazıların dərcini davam etdirir. "Sabiqlərin izi ilə" adlandırdığımız həmin silsilədən bugünkü məqaləmiz "Aqrolizinq" ASC-nin sabiq sədri Əli Bayramov haqqındadır.***

Qeyd etmək yerinə düşər ki, 2010-cu illərin ortalarınadək Azərbaycanda irimiqyaslı korrupsiyada ittiham olunan məmurlar siyahısında Ə.Bayramovun adı ilk sıralarda çəkilirdi. Belə ki, 2007-ci ildən 2014-cü ilə kimi "Aqrolizinq" ASC-nin sədri vəzifəsində çalışan Əli müəllim eyni zamanda həmin vaxt Kənd Təsərrüfatı naziri postunu tutan İsmət Abbasovun da ən yaxın kadrlarından biri, hətta birincisi sayılırdı. Elə həmin yaxınlıq səbəbilə də ona "gözün üstə qaşın var" deyən yox idi, buna arxayın olan sabiq ASC sədri isə dövlətin milyonlarla manatını, obrazlı desək, rahatca havaya sovurmuşdu.

Hər şey bütün çılpaqlığı ilə İ.Abbasovun 2013-cü ildə nazir vəzifəsindən uzaqlaşdırılması ilə gün işığına çıxmağa başlandı. Düzdür, İsmət müəllim daha yüksək posta - Baş nazirin müavini vəzifəsinə təyinat aldı, lakin həmin təyinat nə Ə.Bayramovun kreslosunu qoruyub-saxlamağa imkan verdi, nə də uzun illər boyunca qol qoyulan yeyintiləri örtbasdır eləməyəg

2014-cü ildə öz ərizəsilə "Aqrolizinq" ASC-nin sədri vəzifəsindən gedən Əli müəllim həmin vaxt bunu səhhətindəki problemlərə əsaslandırmağa çalışmışdı. Lakin hamıya bəlli idi ki, əsas səbəb onun rəhbəri olduğu qurumda külli miqdarda yeyinti faktlarının üzə çıxmasıdır. Belə ki, Əli Bayramovun öz vəzifəsini tərk etməsindən cəmi bir neçə gün sonra Hesablama Palatası "Aqrolizinq" ASC-də dövlət büdcəsindən ayrılan vəsaitlərin talanması ilə bağlı üzə çıxardığı faktları cinayət işinin qaldırılması üçün Baş Prokurorluğa göndərmişdi. Hesablama Palatasının həmin vaxt yaydığı məlumata görə, "Aqrolizinq" ASC-də büdcə vəsaitlərindən qanunsuz istifadə, büdcə öhdəliklərinin icra edilməməsi, iş həcmlərinin artırılması, borcların uçotdan yayındırılması və digər maliyyə pozuntularına yol verildiyi nəzərə alınaraq nəzarət tədbiri üzrə yoxlama materialları Baş Prokurorluğa təqdim olunub.

Çox keçmədən isə rəsmi şəkildə açıqlama verildi ki, həmin materiallar Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində araşdırılıb. Aparılmış araşdırmalarla qeyd edilən cəmiyyətin vəzifəli şəxslərinin vəzifə səlahiyyətlərindən sui-istifadə edərək 2011-2013-cü illərdə satınalmalar üzrə müvafiq qanunvericiliyin tələblərini kobud surətdə pozmaqla Satınalmalar üzrə Dövlət Agentliyindən müvafiq razılıq almadan dövlət əmlakından və ayrılmış büdcə vəsaitlərindən qanunsuz istifadə etmələrində, həmçinin büdcə öhdəliklərinin icra edilməməsinə, iş həcmlərinin artırılmasına, borcların uçotdan yayındırılmasına və digər maliyyə pozuntularına yol verməfləri müəyyən olunub. Faktla bağlı Cinayət Məcəlləsinin 308.2 (vəzifə səlahiyyətlərindən sui-istifadə) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə cinayət işi başlanıb.

Bütün bunların ardından mediada əməlli ajiotaj qopdu. Hətta həmin vaxt gah Ə.Bayramovun həbs edilməsinə hazırlıq görüldüyü, gah da onun istintaqdan yayınmaq üçün Türkiyəyə qaçdığına dair məlumatlar yayılmışdı.

Belə iddialar səbəbsiz deyildi: nəinki KİV-ə, yaxud iqtisadçı ekspertlərə, elə geniş ictimaiyyətə də yaxşı məlum idi ki, "Aqrolizinq"in keçirdiyi tenderlərdə öz maraqlarına uyğun şirkətləri cəlb eləmək, onları qalib elan etmək, onların vasitəsi ilə ölkəyə cins mal-qara, texnika, gübrə və digər məhsullar gətirmək məhz Əli Bayramovun idarəçiliyi altında baş verib. Lakin maraqlıdır ki, yüz milyonlarla dollar büdcə vəsaitinin talanması faktlarının araşdırılması gözlənilən şəkildə aparılmadı. O vaxtkı Baş prokuror Zakir Qaralov "Aqrolizinq"-in "xırda kalibrli" məmurlarına qarşı cinayət işi qaldırmaqla, onların bir neçəsini həbs etməklə kifayətləndi. Beləliklə, nəhəng yeyinti əməliyyatlarını ört-basdır edə bildi.

Burada başlıca rollardan birini İsmət Abbasovun oynadığı da şübhə doğurmur. Onun Z.Qaralovla hər hansı formada anlaşdığı və yalnız "Aqrolizinq"in o vaxtkı rəhbərini deyil, həm də özünü cinayət məsuliyyətindən xilas etdiyi söylənilir. Məsələ ondadır ki, adıçəkilən ASC-dəki mənimsəmələrdən "əsas payın" məhz eks-nazirə çatdığına kimsə şübhə eləmirdi.

Aradan bir neçə il keçdi və artıq özü də işsiz qalan, Baş nazir postundan uzaqlaşdırılan İsmət Abbasov keçmiş "sağ əlinin" yaxşılıqlarını unutmadı: Ə.Bayramov 2020-ci ildə "1 saylı Şərab Zavodu" Açıq Tipli Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri təyin edildi.

Məsələ ondadır ki, "Bakı Şərab 1" ATSC Baş nazirin sabiq müavini, keçmiş Kənd Təsərrüfatı naziri İsmət Abbasovun zavodu kimi tanınır. Mətbuatdakı məlumatlarda vaxtilə "Bakı 1 saylı Şərab Zavodu" adlanan bu müəssisədə direktor müavini işləmiş İsmət Abbasovun məhz Kənd Təsərrüfatı naziri olduğu dövrdə onu öz nəzarətinə keçirdiyi bildirilirdi.

Bir sözlə, yerli media bildirirdi ki, bu ATSC-nin gəlirləri əsasən İsmət Abbasovun şəxsi büdcəsinə daxil olur. Yeri gəlmişkən onu da vurğulayaq ki, bu iddialar nə keçmişdə, nə də indi istər İ.Abbasov, istərsə zavod tərəfindən rəsmən təkzib edilməyib.

Yeri gəlmişkən, 1984-cü ildən Dövlət Maddi Texniki Təchizat Komitəsində (sonrakı adı: Material Ehtiyatları Nazirliyi) müxtəlif vəzifələrdə çalışan Əli müəllim daha əvvəl də 1 saylı Bakı Şərab Zavoduna rəhbərliyi həyata keçirib. O, 1997-ci ildə bu zavodun direktoru postuna təyinat alıb, elə "Aqrolizinq"in sədri vəzifəsinə də həmin postdan gətirilib.

64 yaşlı Ə.Bayramov hazırda da adıçəkilən zavodun rəhbəridir. Onun zamanında "Aqrolizinq"də mənimsənilən milyonlarla manatın üstündən isə yəqin ki, çoxdan "su içilib"...

***Toğrul Əliyev***

07_27 IYUI-QARA.qxd 2/23/2024 12:46 AM Page 10



# Məmurların "qəbir biznesi"nə son qoyulur

## Bakıda az qala ev qiymətinə məzar yeri satanların sonu çatır

***Kimliyindən asılı olmayaraq hər kəsin qəbri eyni formada və vahid qiymətdə olacaq. Bunu Milli Məclisin Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov deyib.***

Deputatın sözlərinə görə, qəbirlərin vahid qiymətlərinin olması mövzusu da hazırda müzakirə olunur. Bununla bağlı qanunvericiliyə dəyişiklik edilməsi təklif ediləcək.

Mövzu ilə bağlı başqa bir millət vəkili - Ceyhun Məmmədov isə yerli KİV-ə deyib ki, bu sahədə bir tənzimlənməyə həqiqətən ciddi ehtiyac var: "Getdikcə həm yas, həm toy mərasimlərində həddən artıq israfçılığa yol verilir. Qəbirlərin düzəldilməsinə də böyük məbləğdə vəsaitlər sərf olunur. Xüsusilə dəbdəbəli böyük qəbirlərə artıq vəsait xərclənir. Ona görə də tənzimləməyə ehtiyac var.

Təəssüf ki, bu proses şüurlu getmir, ona görə məcburuq ki, bunu edək. Buna əməl etməyən insanların cəzalandırılması ilə də bağlı nəsə düşünə bilərik. Dünyanın bir sıra ölkələrində artıq bunu edirlər. Həmçinin, standart qəbirlər olmalıdır".

Xatırladaq ki, Azərbaycanda qəbiristanlıqlarda məzar yerlərinin pulla, üstəlik əksər hallarda fantastik qiymətə satılması ilə bağlı narazılıqlar çoxdan gündəmdədir. Məsələn, aylar öncə millət vəkili Fazil Mustafa bildirmişdi ki, qanunla Azərbaycan vətəndaşlarına məzar yerləri pulsuz verilməlidir: "Əgər ölən şəxs bu ölkənin vətəndaşıdırsa, onun ölümündən sonra dəfni üçün yaxınlarının boynuna məsrəf qoymaq düzgün deyil. Bunu düşünərək addım atılmalıdır. İnsanlara öz yaşadıqları ərazilərə yaxın məzarlıqlardan yer ayrılmalıdır..."

Lakin o da maraqlıdır ki, aidiyyatı qurum illərdir hər kəsə bəlli olan sadə həqiqəti təkzib etmək yolunu tutub. Məsələn, Bakı Əhaliyə Vətəndaşlıq Xidməti Trestinin (BƏVXT) baş mühəndisi Sabir Həsənov mətbuata açıqlamasında qəbir yerlərinin satıldığına dair deyilənlərin əksinə onların əhaliyə pulsuz verildiyini iddia edib. Onun sözlərinə görə, vəfat edən şəxsin dəfni üçün torpaq pulsuz ayrılır. Sitat: "Belə deyək ki, yer pulsuzdur, xidmət pulludur. Mərhumun dəfni üçün məzar yerinin qazılması, hörülməsi və sair xidmətlər pulludur".

Azərbaycanda məzar yerlərinin pulsuz olduğu qaydalarda əks olunsa da, məzar yerlərinin pulla satılması danılmaz faktdır! Hətta paytaxtda elə məzarlıqlar var ki, orada qəbir yerlərinin qiyməti 15-20 min manatdan yuxarıdır. El arasında belə məzarlıqlar "elit məzarlıqlar" adlandırılır. Hazırda Bakıətrafı məzarlıqlarda bir qəbir yerinin qiyməti 1500-30000 manat arasında dəyişir.

Başqa bir araşdırma nəticəsində isə aydınlaşıb ki, qeyri-rəsmi rəqəmlərə görə, Bakı və Bakı ətrafında ən ucuz qəbir yeri 140, ən baha 7000 manatdır. Bakının mərkəzindəki qəbir yerləri dolduğundan indi ölüsünü basdırmaq istəyənlər paytaxtdan kənara üz tutmaq məcburiyyətində qalırlar. Paytaxtla müqayisədə Bakıdan kənarda qəbir yerləri nisbətən ucuzdur. Məsələn, Bakıda 200 manatdan 8000 manata qədər qəbir yeri satılır. Bir qədər paytaxtdan kənarda yerləşən Biləcəri qəbiristanlığında 1 kvadratmetrin qiyməti 400-500 manat arasında dəyişir. Ən yaxşı qəbir yerinin 1 kvadratmetri 800-1000 manatdan ucuz deyil. Badamdar qəbiristanlığında 800-2000 manat, Günəşli qəbiristanlığında bu məbləğ 600-1500 manat, Qaraçuxur qəbiristanlığında 200-1000 manat, "Qurd qapısı" qəbiristanlığında 2000-3000 manat civarındadır.

Ən ucuz yer Hövsandadır. Burada 150-300 manata da yer almaq mümkündür. Xırdalan qəbiristanlığında isə 800-1500 manata məzar yerləri var.

Bir çoxları ailə üzvlərini nəzərə alaraq qəbir yerlərini bütöv bir ailə üçün alır. Bu səbəbdən də məzarlıqlarda torpaq sahəsi azalıb və bundan istifadə edən işbazlar qiyməti artırıb. Elə götürək Bakının Yasamal rayonu ərazisində yerləşən qəbiristanlığı. Həmin ərazidə boş qalan torpaqlar baha qiymətə satılır.



Yasamal qəbiristanlığı kimi tanınan bu məzarlıqda torpağın 2 sotu 5000-7000 manat arasında dəyişir. Onu da deyək ki, Yasamal qəbiristanlığında demək olar boş yer qalmayıb. Vaxtilə imkanı olanlar bu əraziləri hasarlatdıraraq bir növ "özəlləşdiriblər". Odur ki, məzarlıqda ailəvi qəbirlərə daha çox rast gəlinir.

Üstəlik, əksər hallarda dəfn xərcləri (qəbrin qazılması, hörülməsi və s.) üçün də ayrıca ödəniş lazım gəlir.

Bir sözlə, qanunvericiliyə zidd olaraq qəbir yerlərinin pulla, üstəlik, əksər hallarda fantastik məbləğə satılması acı reallıqdır. Aydın görünür ki, aidiyyatı qurumlarda çalışan bəzi məmurlar bunu əməlli-başlı qazanc mənbəyinə çeviriblər.

Qəbirlərin vahid qiymətdə olacağına dair deputatların açıqlamaları isə bu biabırçı "biznes"ə son qoyulacağına ümid yaradır.

**Toğrul Əliyev**



# Nəcməddin Sadıkov məhkəməyə çağırıldı

***"Tərtər işi" üzrə təqsirli bilinərək məhkum edilmiş general Bəkir Orucov və digər zabitlər-Ziya Kazımov, Ülvi Rəşidov, İntiqam Məmmədov və Rahib Məmmədovun şikayəti üzrə məhkəmə prosesi başlayıb.***

"Unikal" xəbər verir ki, "qafqazinfo"nun əldə etdiyi məlumata görə, Bakı Apellyasiya Məhkəməsində keçirilən ilk iclasda müdafiə tərəfi bir sıra vəsatətlər qaldırıb. General Orucovun vəkili Elvin Rzayev və digər müdafiəçilərin ilk vəsatəti apellyasiya məhkəməsinin tam istintaqla aparılması ilə bağlı olub.

Vəkillər Müdafiə Nazirliyinin sabiq Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkov və başqa bir neçə zabitin məhkəməyə çağırılmasını istəyiblər. Müdafiə tərəfi həmin şəxslərin məhkəmədə deyəcəklərinin iş üçün əhəmiyyət kəsb etdiyini düşünür.

Hakim Elmar Rəhimov məhkəmənin istintaqla aparılması haqda vəsatəti təmin etməyib. N.Sadıkov və digərlərinin əlavə şahid kimi məhkəməyə çağırılması ilə bağlı vəsatət isə hələ ki, baxılmamış saxlanılıb. Hakim deyib ki, məhkəmə baxışının gedişində həmin vəsatət yenidən müzakirə ediləcək.

Proses fevralın 28-i davam edəcək.

Qeyd edək ki, Bakı Hərbi Məhkəməsinin hökmü ilə Bəkir Orucov 9 il 6 ay, Z.Kazımov və Ü.Rəşidov 9 il 6 ay, İ. Məmmədov və R.Məmmədov isə 6 il 6 ay azadlıqdan məhrum edilib.

# "Zibil atmağa çıxanda..." - Sabiq rektorun məhkəməsi

***"Elm və Təfəkkür Universiteti"nin prorektoru Tariyel Əhmədovun öldürülməsində təqsirləndirilən Müşviq Atakişiyev, Dəyanət Quliyev və Samir Quliyevin cinayət işi üzrə növbəti məhkəmə prosesi keçirilib.***

"Unikal" apa-ya istinadən xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Siyavuş Hacıyevin sədrliyi ilə keçirilən prosesdə şahidlər ifadə verib. Şahid qismində ifadə verən Etibar Bağırov bildirib ki, təqsirləndirilən şəxslərdən heç kimi tanımır: "Evə gələndə uşaqlar dedi ki, ata, dostunu televizorda göstəriblər. Baxdım ki, Tariyeli öldürüblər. Hadisə barədə heç bir məlumatım olmayıb. Heyif, Tariyel ölüsü adam deyildi".

Digər şahid Azər Şirinov bildirib ki, zibil atmağa çıxanda parkda yerdə uzanıqlı adam görüb: "Səhər tezdən evdən zibil atmağa çıxmışdım. Gördüm parkda bir nəfər üzü üstə yerdə uzanıb. Yaxınlaşdım, amma tanımadım. Sonra evə qalxıb polisə məlumat verdim. Bölmədən polislər gəldi".

Şahid Günel Quliyeva isə bildirib ki, təqsirləndirilən Dəyanət Quliyev onun qardaşı, Müşfiq Atakişiyev isə dayısıdır: "Mən bu hadisədən Dəyanət həbs olunadan sonra xəbərdar olmuşam. Əvvəllər Tariyel Əhmədovu tanımamışam. Dəyanətin yoldaşı bizə zəng etdi, anamla danışdı. Dedi ki, Dəyanət içib sərxoş olub, polisə qətl hadisəsi törətməsi barədə məlumat verib. Son zamanlar Dəyanətin psixologiyasında problemlər yaranmışdı. Buna görə də həkimə gedirdi, dərman qəbul edirdi. Amma sonradan həkimə getmədi, dərman qəbul etmədi".

Daha sonra prosesdə şahidlərin istintaqa verdiyi ifadə elan edilib. Məhkəmə prosesi martın 13-də davam etdiriləcək.

Qeyd edək ki, Baş Prokurorluğun yaydığı məlumata görə, "Elm və Təhsil Mərkəzi Təfəkkür Universiteti"nin prorektoru Tariyel Əhmədovun 16 sentyabr 2011-ci il tarixdə qəsdən öldürülməsi faktı ilə bağlı başlanmış cinayət işi üzrə həyata keçirilən istintaq-əməliyyat tədbirləri nəticəsində cinayəti törətməkdə təqsirləndirilən şəxslər ifşa edilib.

# 2023-cü ildə Ağdaşda makroiqtisadi göstəricilər belə olub

***2023-cü ildə rayonda iqtisadiyyatın əsas sahələri üzrə 477 milyon 578,2 min manatlıq məhsul və xidmətlər istehsal olunub.***

Bu göstərici əvvəlki illə müqayisədə faktiki qiymətlərlə 2,5 faiz və ya 11 milyon 706,7 min manat çox, qiymət indeksi nəzərə alınmaqla isə 2,7 faiz və ya 12 milyon 414,3 min manat azdır.

Müqayisə olunan dövrə nisbətən ümumi məhsul buraxılışı qiymət indeksi nəzərə alınmaqla tikinti-quraşdırma işləri sahəsində 18,0 faiz və ya 1 milyon 857,8 min manat, informasiya və rabitə sahəsində 7,7 faiz və ya 52,4 min manat, kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahəsində 3,6 faiz və ya 7 milyon 285,2 min manat, nəqliyyat və anbar təsərrüfatı sahəsində 0,4 faiz və ya 25,2 min manat artmış, ticarət və nəqliyyat vasitələrinin təmiri sahəsində isə 1,7 faiz və ya 2 milyon 328,7 min manat, sənaye məhsulu istehsalı sahəsində isə 18,2 faiz və ya 19 milyon 306,2 min manat, azalmışdır.

Ümumi məhsul buraxılışının 47,6 faizi kənd təsərrüfatı, 30,8 faizi ticarət xidməti və nəqliyyat vasitələrinin təmiri, 17,4 faizi sənaye, 2,6 faizi tikinti, 1,5 faizi nəqliyyat və anbar təsərrüfatı, 0,1 faizi isə informasiya və rabitə xidmətləri sahəsində yaranmışdır. Məhsul və xidmətlərin 67,6 faizi istehsal sahələrinin, 32,4 faizi isə xidmət sahələrinin payına düşmüşdür.

Qeyd edək ki, Ağdaş rayonunda 2024-cü ilin məhsulu üçün arpanın səpin sahəsi artıb. Rayonda 2024-cü ilin məhsulu üçün payızlıq bitkilərin kütləvi səpini başa çatmışdır və cari il yanvar ayının 1-i vəziyyətinə 16064,0 hektar sahədə dən və yaşıl yem üçün payızlıq bitkilər səpilmişdir. Səpin aparılmış sahənin 99,7 faizini və yaxud 16009,0 hektarını dən üçün payızlıq bitkilər təşkil etmişdir ki, onun da 3945,0 hektarı buğda, 12064,0 hektarı arpa əkinlərinin payına düşür.

Ən çox payızlıq bitkilər rayonun Yuxarı Nemətabad, Ərəbocağı, Prkəkə, Kotavan və Qaradağlı kəndlərində səpilmişdir. Ötən ilin eyni dövrü ilə müqayisədə dən üçün payızlıq bitkilərin səpin sahəsi 0,6 faiz, o cümlədən buğdanın səpin sahəsi 5,8 faiz azalmış, arpanın səpin sahəsi 1,2 faiz artmışdır.

***Ağdaş Rayon Statistika İdarəsi***

# Goranboy rayonunda informasiya və rabitənin göstəriciləri

***2023-cü ildə informasiya və rabitə müəssisələri tərəfindən müəssisə və təşkilatlara, habelə əhaliyə faktiki qiymətlərlə 1761,1 min manatlıq rabitə xidməti göstərilmişdir. Rabitə xidməti 2022-ci ilə nisbətən 16,9 faiz, əhaliyə göstərilmiş rabitə xidməti isə 17,7 faiz artmışdır.***

2023-cü ildə informasiya və rabitə müəssisələrində çalışmış işçilərin orta siyahı sayı 85 nəfər olmuş və onların orta aylıq nominal əməkhaqqı əvvəlki illə müqayisədə 4,9 faiz artaraq 372,2 manat təşkil etmişdir.

***Cədvəl 1***

**İnformasiya və rabitə işinin əsas göstəriciləri**

| Göstəricinin adı | 2023-cü il | 2022-ci il | 2022-ci ilə nisbətən, faizlə |
|---|---|---|---|
| İnformasiya və rabitə xidmətlərinin həcmi, min manat (ƏDV-siz) | 1761,1 | 1506,1 | 116,9 |
| Əhaliyə göstərilmiş rabitə xidməti, min manat (ƏDV-lə) | 1800,3 | 1529,1 | 117,7 |
| Rabitə müəssisələrində çalışanların orta aylıq nominal əməkhaqqı, manat *) | 372,2 | 354,7 | 104,9 |
| Rabitə müəssisələrində çalışan işçilərin orta siyahı sayı, nəfər *) | 85 | 92 | 92,4 |

*) ilkin məlumatlara əsasən

***Qrafik 1***

**İnformasiya və rabitə xidmətlərinin dinamikası,** min manat




**Goranboy Rayon Statistika İdarəsi**

# Toy oliqarxlarının yeni oyunu

## Şadlıq saraylarında qiymətlər yenidən bahalaşdı - Ağlasığmaz səbəblər!



***2024-cü ilin yanvar ayında şadlıq saraylarında sifarişlərin sayı 6.5 faiz artıb. Bu barədə yola salmaq üzrə olduğumuz həftə İqtisadi və Sosial İnkişaf Mərkəzindən (CESD) məlumat verilib.***

Mərkəz tərəfindən aparılan monitorinqə əsasən, eyni zamanda, şadlıq saraylarında yanvar ayında qiymətlər 5.6 faiz artıb. Xüsusən 40 manatadək olan menyularda qiymət daha çox artıb: 6.2 faiz. Qiyməti 40-80 faiz olan menyuların qiyməti 5.8 faiz yüksəlib. Dəyəri 100 manatdan çox olan menyuların qiymətində də 4.9 faiz artım qeydə alınıb.

Ümumilikdə istehlak bazarında ən yüksək qiymət artımları yenə də qida məhsullarında qeydə alınıb. Bu, ərzaq tələbinin yüksəlməsi və idxal inflyasiyasının hələ də aktiv olması ilə əlaqələndirilir. Ərzaq məhsulları üzrə illik inflyasiya 2.5 faiz olub.

İqtisadçı ekspert Xalid Kərimli isə şadlıq saraylarının qiymət artımından danışarkən valyuta.az-a açıqlamasında deyib ki, restoran və şadlıq evləri sahəsində ciddi rəqabət var.

“Bazarda yüzlərlə restoran və şadlıq evləri fəaliyyət göstərir. Amma buna baxmayaraq, qiymətin artması onu deməyə əsas verir ki, restoranlar uzun müddətli rentabelli fəaliyyət göstərməsi üçün qiymət siyasətinə baxmaq məcburiyyətində qalıblar. Restoranı seçəndə insanlar daha rahat və çevik qərarlar verə bilirlər. Bu baxımdan restoranlar bahalaşmış ərzaq qiymətlərini və xidmətlərin qiymətini öz menyularında əks etdirirlər. Məsələn, əvvəl müğənni 3 minə oxuyurdusa bu gün həmin qiymət 5 min olub” deyə o bildirib.

Ekspertin fikrincə, restoran sahibi bütün bunları nəzərə alaraq artan qiymətləri öz menyusunda əks etdirir.

”Unikal”ın araşdırması nəticəsində isə aydınlaşıb ki, şadlıq evlərində bahalaşma artıq qarşısı alınmaz xarakter daşıyır. Belə ki, az qala hər ay menyülərdə qiymətlər artırılır, əvəzində isə nə yeməklərin, nə xidmətin keyfiyyətində dəyişiklik var. Hətta bu baxımdan vəziyyətin getdikcə pisləşdiyi müşahidə olunur. Əksər şadlıq evləri süfrələri daha ucuz başa gələn toyuq mənşəli qidalarla ”bəzəyirlər”.

Onu da deyək ki, hələ ötən il DAİR Otellər və Restoranlar Assosiasiyası İdarə Heyətinin sədri Samir Dübəndi yerli KİV-ə bəzi şadlıq saraylarının süni şəkildə qiymətləri artırdığına diqqət çəkmişdi. Onun sözlərinə görə, şadlıq evlərinin sahibləri çalışırlar ki, daha çox qazanc əldə etsinlər. Amma bu halda daha keyfiyyətli xidmətlərin göstərilməsinə diqqət yetirmirlər. Sitat: ”Biz DAİR Otellər və Restoranlar Assosiasiyası olaraq şadlıq saraylarını ictimai iaşə sektorundan ayırmırıq. Qeyd etmək istərdim ki, şadlıq sarayları ilə işləmək çox çətindir. İcarəçilər dəyişir, biri gedir digəri gəlir. Görürük ki, bir neçə aydan sonra digər bir insan gəlir. Yəni, personal tez-tez dəyişir. Şadlıq saraylarında bizim toy məclislərinə dəvət olunan ofisiantlar özünüz bilirsiniz ki, onlar haradan toplanırlar. Ştatda olan işçi ya olmur, ya olsa da, çox az sayda olur. Bu da təbii ki, keyfiyyətli xidmətlərin göstərilməsinə birbaşa təsir göstərir. O günəmuzd işləyən insanlara da heç kəs nə təlim keçir, nə onları qayda-qanuna alışdırır, nə bir nizam-intizama alışdırırlar. Yəni, bir qədər bəlli bir məsələdir. Bu insan gəlir bir gün işləyir, günün axırında pulunu alır, bir az çay pulu qazanıb gedir. Heç şadlıq sarayı bilmir ki, bu insan sabah yenə də qayıdacaqmı. Bəlkə də heç qayıtmayacaq. Burada da belə bir problemlər yaşanır”.

”Unikal”ın araşdırması zamanı o da aydınlaşıb ki, xüsusilə COVİD-19 pandemiyasından sonra şadlıq sarayları insanları öz büdcələrinə uyğun menyu seçməyə imkan vermirlər. Toy sahibinə standart menyu təqdim edilir, masaya isə oxşar salat və isti yeməklər düzülür, lakin qiymətlər ağlasığmaz dərəcədə şişirdilir. Nəticədə toy edən vətəndaş qənaət edə bilmir, bununla da israfa yol verilir.

Son vaxtlar İqtisadiyyat Nazirliyinin şadlıq saraylarına nəzarəti artırmasının vacibliyi barədə çağırışların artması bütün bu deyilənlərdə həqiqət payının hədsiz yüksək olduğunu təsdiqləyir. Hər bir halda, mövcud reallıq onu göstərir ki, toylar şadlıq evlərinin sahibləri - ”toy oliqarxları” üçün hələ də əvəzsiz qazanc mənbəyidir. Onlardan ötrü qida təhlükəsizliyi, keyfiyyətli qida və xidmət məsələsi ikinci planda dayanır.

Əksər şadlıq saraylarının bu cür məsələlərdə arxayın davranmasının səbəbi üzərində isə çox baş sındırmağa dəyməz. Əvvəllər də yazdığımız kimi, səbəb kifayət qədər aydındır: sözügedən obyektlərin çoxu müxtəlif məmurların ya nəzarəti, ya da himayəsi altındadır. Bu səbəbdən də onlar özlərini toxunulmaz sayır, nəticədə nə qiyməti bahalaşdırmaqdan çəkinirlər, nə də qidaların keyfiyyətini və müştərilərə xidməti özlərinə dərd edirlər...

Ortada isə cavabını gözləyən sadə bir sual var: xidmət və keyfiyyət yerlərdə süründüyü halda, ”toy oliqarxlarının” qarşısıalınmaz bahalaşma siyasətinə nəhayət ki, ”dur” deyən tapılacaqmı?!

***Sənan Mirzə***

**5.3.3. insan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Azərbaycanda seçici fəallığı ilbail artır



**Elşad Mirbəşiroğlu: Bu, Azərbaycan xalqının yüksək siyasi mədəniyyətindən irəli gəlirdi ki, biz bu prezident seçkilərində yüksək seçici fəallığını müşahidə etdik"**



**Kamilə Əliyeva: "Bu seçkilərdə xalqımızın həmrəylik və birlik nümayiş etdirməsində 30 illik torpaq həsrətinin başa çatması böyük rol oynamış oldu"**

***Azərbaycanda seçici fəallığı ilbail artır. Ölkəmizin vətəndaşları istər parlament, istər bələdiyyə, istərsə də prezident seçkilərində hər dəfə daha çox aktivlik nümayiş etdirirlər. Bu dəfə də Azərbaycanda növbədənkənar prezident seçkilərində yüksək seçici fəallığı müşahidə olunub.***

Mərkəzi Seçki Komissiyası Katibliyinin İnformasiya Mərkəzinin müdiri Fərid Orucov bildirib ki, respublika üzrə 4 971 032 nəfər səs verib, seçici fəallığı 76,73 faiz olub. Prezident seçkiləri 125 seçki dairəsi üzrə 6319-u daimi, 218-i müvəqqəti olmaqla, ümumilikdə 6537 seçki məntəqəsində keçirilib. Bu məntəqələrdən 47-si işğaldan azad olunmuş ərazilərdə, 49-u Azərbaycanın 37 xarici ölkədəki səfirlik, konsulluq və diplomatik nümayəndəliklərində yerləşib. Səsvermə günü seçicilər yüksək fəallıqla, azad və sərbəst şəkildə seçki məntəqələrinə gələrək öz iradələrini ifadə edib və ümumilikdə, ölkə üzrə seçicilərin 76,43 faizi səsvermədə iştirak edib. Seçki günü ərzində 5 dəfə seçicilərin aktivliyi barədə məlumatlar Dövlət Avtomatlaşdırılmış İnformasiya Sistemi üzərindən xüsusi proqram təminatı vasitəsi ilə birbaşa Mərkəzi Seçki Komissiyasına ötürülərək ictimailəşdirilib və Komissiyanın internet səhifəsində yerləşdirilib. Səsvermə günü seçki məntəqələri bağlandıqdan sonra fasiləsiz olaraq səslərin hesablanması həyata keçirilib, məntəqə seçki komissiyalarının ilkin protokol məlumatları operativ şəkildə MSK-nın internet səhifəsinə qoyulub və bir neçə saat ərzində seçki məntəqələrinin mütləq əksəriyyətindən daxil olmuş məlumatlar əsasında səsvermənin ilkin nəticələri ictimaiyyətin diqqətinə çatdırılıb.

Milli Məclisin deputatı, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Politologiya və siyasi idarəetmə" kafedrasının professoru Elşad Mirbəşiroğlu "Unikal" qəzetinə açıqlamasında bildirib ki, prezident seçkilərinin yüksək seçici fəallığı ilə müşayiət olunmasının ciddi əsasları var. Başlıca əsaslar isə ondan ibarətdir ki, ölkə vətəndaşları növbədənkənar prezident seçkilərini prezident İlham Əliyevə öz minnətdarlıq hissini ifadə etmək imkanı kimi görürdü.

"İlham Əliyev ölkə vətəndaşlarının gözləntilərini illərdir doğrultmaqla yanaşı, ərazi bütövlüyümüzü də təmin etmişdi. Bu hər bir azərbaycanlının gözlədiyi zəfər idi. İkinci məqam isə ondan ibarət idi ki, müstəqillik tariximizdə ilk dəfə idi ki, ölkəmizin hər yerində seçki keçirilirdi. Azərbaycan müstəqilliyinə qovuşan zaman ərazisinin 1/3 hissəsini itirmişdi. Ona görə də müstəqilliyimiz dövründə heç bir seçki ölkə ərazisini əhatə edə bilmirdi. Bu dəfə seçkilərdə insanlar ata-baba yurdlarında öz seçki hüququndan istifadə edə bildi. Bu tarixi bir hadisə oldu. Bu tarixi keçid mərhələsində hər kəs istəyirdi ki, öz səsini xalqın gələcək rifahını düşünən şəxsə, Ali Baş Komandana versin. Vətəndaşlar sabitliyə, inkişafa səs verərək İlham Əliyevə dəstəyini ifadə etdi. Xalq öz dəstəyi ilə prezidentə hörmət və ehtiramını, inamını nümayiş etdirdi. Azərbaycan xalqı siyasi proseslərin mahiyyətini dərk edərək, düzgün seçim etmə bacarığını nümayiş etdirdi. Bu, Azərbaycan xalqının yüksək siyasi mədəniyyətindən irəli gəlirdi ki, biz bu prezident seçkilərində yüksək seçici fəallığını müşahidə etdik"- deyə deputat bildirib.

Deputat Kamilə Əliyeva da bu seçkilərin Zəfər seçkiləri adlandırıldığını, odur ki, yüksək seçici fəallığının gözlənilən olduğunu bildirdi. O, qeyd edib ki, bu seçkilərdə xalqımızın həmrəylik və birlik nümayiş etdirməsində 30 illik torpaq həsrətinin başa çatması böyük rol oynamış oldu: "Azərbaycanın hər yerində seçkilər keçirildi, xalq öz səsini dünyaya dövlətimizi qalib dövlət kimi tanıdan şəxsə, İlham Əliyevə verdi. Xalq öz səsvermə hüququndan istifadə edərək gələcək nəsillərin firavan yaşaması üçün bu seçkilərdə də aktivlik nümayiş etdirdi, qalib liderini öz prezidenti seçdi. Zəfər seçkilərinin yüksək seçici fəallığı şəraitində keçməsi torpaqlarımızın Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad, ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpa edilməsinin yaratdığı qürur hissinin nümayişi oldu".

Qeyd edək ki, xarici müşahidəçilər də Azərbaycanda keçirilən prezident seçkilərində yüksək seçici fəallığı olduğunu bildiriblər. Politoloq İqor Korotçenko Azərbaycanda keçirilən prezident seçkilərinin monitorinqinin yekunlarına dair mətbuat konfransında bildirib: "Azərbaycanda keçirilən prezident seçkilərində müşahidə olunan seçici fəallığı Avropa İttifaqının (Aİ) heç bir ölkəsində ola bilməz. Bu, Azərbaycan vətəndaş cəmiyyətinin yetkinliyinin və seçicilərin yüksək məsuliyyətinin göstəricisidir. Onlar başa düşürlər ki, səsləri, bu məsələyə töhfələri həqiqətən ölkənin gələcəyini müəyyən edir. Çünki prezident dövlətin təcəssümüdür və Azərbaycan xalqının fikrincə, vətəndaşlar ölkəni irəli aparmalı olan namizədə səs verməyə gedirdilər", - o vurğulayıb.

İ.Korotçenkonun fikrincə, İlham Əliyevin qələbəsi təkcə xalqın onun siyasi kursuna verdiyi dəstəkdən irəli gəlmirdi: "Bu nəticə ondan irəli gəlir ki, onun siyasəti milli maraqları əks etdirir və heç bir kənar təzyiqə məruz qalmır".

Xatırladaq ki, prezident seçkilərinin müşahidəsinə 72 nüfuzlu beynəlxalq qurumu və 89 ölkəni təmsil edən 790 beynəlxalq müşahidəçi qatılıb. Eyni zamanda dünyanın 110 aparıcı xarici media subyektindən olan 217 təmsilçi MSK tərəfindən müvafiq lövhəciklə təmin edilərək seçkiləri izləyiblər.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**



## Şəhid övladları Pilotların Hazırlığı Mərkəzini ziyarət ediblər

***Milli Aviasiya Akademiyasının nəzdində fəaliyyət göstərən Pilotların Hazırlığı Mərkəzində 44 günlük Vətən müharibəsi şəhidlərinin övladları və ailə üzvləri üçün ekskursiya keçirilib. 20 şəhid övladının iştirak etdiyi ekskursiya çərçivəsində qonaqlar AZAL pilotlarının uçuşlara hazırlıq prosesi ilə əyani tanış olublar.***

Bu barədə "Unikal"a "Azərbaycan Hava Yolları" QSC-nin Mətbuat xidmətindən məlumat verilib.

Tədbir Azərbaycanın milli aviadaşıyıcısı AZAL və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin birgə təşkilatçılığı ilə baş tutub. Görüş şəhid övladları və ailə üzvlərinin asudə vaxtının səmərəli təşkili və cəmiyyətə inteqrasiyası məqsədini daşıyırdı.

Ekskursiya zamanı İkinci Qarabağ müharibəsində şəhid olmuş qəhrəmanlarımızın övladlarına və ailə üzvlərinə Pilotların Hazırlıq Mərkəzinin imkanları barədə ətraflı məlumat verilib. İştirakçılar uçuş simulyatorları ilə yaxından tanış olublar, AZAL pilotlarının trenajorlarda hazırlıq keçmə prosesini izləyiblər və təyyarədə uçuşların necə reallaşdığını sınaqdan keçiriblər.

Pilotların Hazırlığı Mərkəzi 2010-cu ildən fəaliyyət göstərir. Mərkəz Nəzəri və Praktiki Hazırlıq şöbələrindən ibarətdir. Burada "Airbus A319/320", "Boeing 757/767", ATR-42/72, "Embraer 190", "Cessna 172S" kimi təyyarələr, həmçinin Mi-8AMT helikopterləri üçün uçuş simulyatorları mövcuddur.

## "Azərpoçt" ABŞ-dən onlayn çatdırılma xidmətinə başlayıb

***Artıq bir ildən çoxdur ki, fəaliyyət göstərən "Azərpoçt"un PostCargo xidməti Amerikadan onlayn sifarişlərin çatdırılmasına başlayıb.***

"Unikal" xəbər verir ki, indi müştərilər ABŞ-də fəaliyyət göstərən ən məşhur onlayn alış-veriş platformalarından istədikləri əşyaların alışını edə və ölkəyə PostCargo vasitəsilə çatdırılmasına nail ola bilərlər.

ABŞ - Azərbaycan üzrə daşımaların tarifi minimal həddə müəyyən olunub ki, bu da digərləri ilə müqayisədə olduqca sərfəli hesab olunur.

Qeyd edək ki, ABŞ-dən Azərbaycana PostCargo vasitəsilə malların qısa müddətdə gətirilməsi üçün operativ şəkildə uçuşlar təmin olunur.

PostCargo xidmətindən faydalanmaq üçün istifadəçilər www.postcargo.az saytında qeydiyyatdan keçə, eləcə də PostCargoya aid mobil tətbiqi "App Store" və "Play Market"dən yükləyə bilərlər.

Onu da qeyd edək ki, bu günə qədər Türkiyədən onlayn sifarişlərin çatdırılmasını həyata keçirən PostCargo xidmətinin fəaliyyəti keyfiyyət və istifadəçi məmnuniyyəti baxımından uğurlu olub. Müştərilərini müxtəlif kampaniya və yeniliklərlə sevindirən PostCargo yaxın zamanda Avropadan da onlayn sifarişlərin daşınmasını icra edəcək.

07_27 IYUl-QARA.qxd 2/23/2024 12:46 AM Page 13



# "Kənddən Şəhərə" həftəsonu yarmarkası təşkil olunacaq



***Kənd Təsərrüfatı Nazirliyinin təşkilatçılığı ilə 24-25 fevral tarixlərində "Kənddən Şəhərə" həftəsonu yarmarkası təşkil olunacaq. Ümumilikdə 20-dən artıq rayondan 40-dan çox fermerin yarmarkada iştirakı gözlənilir. Fermerlər 90-a qədər çeşiddə kənd təsərrüfatı və qida məhsullarının satışını həyata keçirəcəklər.***

"Unikal" xəbər verir ki, satışa çıxarılacaq məhsullar müxtəlif regionlarda fəaliyyət göstərən və yarmarkada iştirak üçün əvvəlcədən qeydiyyatdan keçən fermerlər tərəfindən yetişdirilir. Yarmarkanın əsas üstünlüklərindən biri də məhsulların satışının birbaşa fermerlər tərəfindən həyata keçirilməsidir. Məhsulların keyfiyyətinə Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi nəzarət edəcək. Vətəndaşlar burada fəaliyyət göstərən Səyyar Qida Laboratoriyasının xidmətlərindən də faydalana biləcəklər.

Qeyd edək ki, yarmarkada iştirak edəcək fermerlər ödənişsiz şəkildə piştaxta, tərəzi və digər avadanlıqlarla təmin olunacaqlar. Alıcılar təbii kənd məhsullarını qeyd edilən tarixlərdə saat 9:00-dan 19:00-dək Nərimanov rayonu, Fətəli xan Xoyski küçəsi, 5 ("Gənclik" metro stansiyasının yanı) ünvanında baş tutacaq yarmarkadan əldə edə bilərlər.

# Ucarın sənaye və məhsul bazarının 2023-cü il statistikası

Sənaye müəssisələrində və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 2023-cü ildə 14095,9 min manatlıq məhsul istehsal edilmişdir. Sənaye istehsalı indeksi 95,4 faiz təşkil edib.

Cəmi istehsalın 14095,9 min manatı və ya 100,0 faizi müəssisələrin və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarların əsas fəaliyyətindən yaranıb.

2023-cü ildə sənaye sahəsində istehsalın və xidmətlərin həcminin 4029,3 min manatı və ya 28,6 faizi dövlət sektorunun, 10066,6 min manatı və ya 71,4 faizi qeyri-dövlət sektorunun payına düşmüşdür. İstehsal və xidmətlərin həcminin 3060,2 min manatını və ya 21,7 faizini elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sahəsi, 1009,2 min manatını və ya 7,2 faizini sutəchizatı, tullantıların təmizlənməsi və emalı sahəsi, 10026,5 min manatını və ya 71,1 faizini isə emal sənayesi sahəsi təşkil edib.

2023-cü ildə pərakəndə ticarət şəbəkələrindən əhaliyə 247225,8 min manatlıq və ya 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə real ifadədə 0,7 faiz çox istehlak malları satılıb.

2023-cü ildə pərakəndə ticarət şəbəkəsindən əhaliyə satılmış ərzaq məhsulları, içkilər və tütün məmulatlarının həcmi artaraq 151905,6 min manat, qeyri-ərzaq mallarının həcmi artaraq 95320,2 min manat olub.

Ticarət dövriyyəsinin həcmində ərzaq məhsulları, içki və tütün məmulatları və qeyri-ərzaq mallarının xüsusi çəkiləri müvafiq olaraq 61,4 və 38,6 faiz təşkil edib. Hesabat dövrünün sonuna pərakəndə ticarət şəbəkələrində mal ehtiyatlarının qalığı 6462,0 min manat o cümlədən hüquqi şəxslər üzrə 1101,3 manat, fərdi sahibkarlar, bazar və yarmarkalar üzrə 5360,7 min manat olub.

***Emin Qəhrəmanov,***

*Ucar Rayon Statistika İdarəsinin baş məsləhətçisi*

# Bakı-Quba-Rusiya yolu yayda tam istismara veriləcək

***Köhnə Bakı-Quba-Rusiya Federasiyası avtomobil yolunun Bakıdan Qubaya gediş hissəsinin təqribən 45%-də təmir işləri aparılıb.***

"Unikal" xəbər verir ki, bunu Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin (AAYDA) İdarə heyətinin sədri Saleh Məmmədov jurnalistlərə açıqlamasında bildirib.

Onun sözlərinə görə, bu ilin yay aylarında son yekun işləri görüləcək və yol tam təmirli halda istismara veriləcək.

# DİM buraxılış imtahanında iştirak edən şagirdlərə müraciət etdi

***Məlum olduğu kimi, 2024-cü il martın 3-də Bakı şəhərinin Qaradağ, Binəqədi, Xətai, Suraxanı, Pirallahı, Yasamal rayonlarında, Abşeron, Gəncə - 1, Goranboy, Göygöl, Naftalan, Şəmkir, Gədəbəy, Şirvan, Hacıqabul, Neftçala, Salyan, Ucar, İsmayıllı, Kürdəmir, Ağsu, Zərdab, Lənkəran, Cəlilabad, Astara, Bərdə, Tərtər, Yevlax, Ağdərə (Talış kənd tam orta məktəbi), Şəki, Oğuz, Qəbələ, Xaçmaz, Siyəzən və Şabranda Dövlət İmtahan Mərkəzi tərəfindən tam (11 illik) orta təhsil səviyyəsi üzrə buraxılış imtahanı keçiriləcək. Martın 3-də Çilov adasında yerləşən məktəbin, həmçinin tədrisi ingilis və fransız dilində olan məktəblərin şagirdləri də imtahan verirlər.***

Buraxılış imtahanında iştirak edəcək şagirdlər //www.e-gov.az/az/services/read/2516/0?tqdk_xdm=46 linkindən istifadə etməklə özlərinin imtahana buraxılış vərəqəsini, təhsil müəssisələri isə bütün şagirdlərin imtahana buraxılış vərəqələrini çap edə bilərlər. Şagirdlər iş nömrəsini




buradan öyrənə bilərlər.

Bu barədə "Unikal"a Dövlət İmtahan Mərkəzindən (DİM) məlumat verilib. Buraxılış vərəqəsini çap etmək üçün kompüterə Adobe Reader proqramı quraşdırılmalıdır və brauzerin "Pop-up blocked" sahəsindən qeyd işarəsi götürülməlidir. Şəxsiyyəti təsdiq edən sənədində şəkli olmayan şagirdlər buraxılış imtahanı üçün təhsil müəssisəsi tərəfindən verilməli olan arayışı DİM-in saytından yükləyə bilərlər.

Şagirdlər imtahana aşağıdakı sənədləri gətirməlidirlər:

-İmtahana buraxılış vərəqəsi;

- Şəxsiyyəti təsdiq edən sənədin əsli:

a) Azərbaycan Respublikasının vətəndaşları (16 yaşı tamam olmayan iştirakçılar da daxil olmaqla) şəxsiyyət vəsiqəsini;

b) əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Dövlət Miqrasiya Xidməti tərəfindən verilmiş icazə vəsiqələrini, qaçqın statusu almış xarici vətəndaşlar və onların ailə üzvləri isə qaçqın vəsiqələrini;

-Şəxsiyyət vəsiqəsində şəkli olmayan iştirakçılar digər sənədlərlə yanaşı, təhsil müəssisəsi tərəfindən verilmiş və fotoşəkilləri yapışdırılmış arayışı (arayışa iştirakçının 3x4sm ölçülü şəkli yapışdırılır və şəkil möhürlə təsdiqlənir).

Şəxsiyyəti təsdiq edən sənədində şəkli olmayan şagirdlər buraxılış imtahanı üçün təhsil müəssisəsi tərəfindən verilməli olan arayışı DİM-in saytından yükləyə bilərlər.

Şagirdlər bitirdikləri məktəbin yerləşdiyi yerə uyğun rayonda (şəhərdə) imtahan verirlər. Məcburi köçkün rayonlarının məktəblərində təhsil alan şagirdlər bitirdikləri təhsil müəssisəsinin yerləşdiyi şəhər və rayonların imtahan gününə uyğun tarixdə imtahan verirlər. Peşə liseylərinin şagirdləri həmin liseyin yerləşdiyi şəhər və rayonların imtahan gününə uyğun tarixdə imtahan verirlər.

# Müvəqqəti yaşayış yerlərindən daimi məskunlaşmaya

***Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı çərçivəsində Qarabağ və Şərqi Zəngəzurda genişmiqyaslı bərpa-quruculuq işləri aparılır, məcburi köçkünlər mərhələli şəkildə doğma yurda qayıdırlar.***

Bu günədək işğaldan azad edilmiş ərazilərdə bərpa edilən və yenidən qurulan beş yaşayış məntəqəsi üzrə 1360 məcburi köçkün ailəsinin (5354 nəfər) daimi məskunlaşması təmin edilib.

"Unikal" xəbər verir ki, Laçın rayonunun Zabux kəndi də onlardan biridir. Kənddə bütün zəruri texniki-sosial infrastruktur qurulub, sakinlərin rahat yaşayışı üçün işlər görülüb. Zabuxun 797 sakini (207 ailə) doğma yurdda yaşayır, onun dirçəlməsinə və gələcək inkişafına töhfə verirlər.

Dövlət Komitəsi tərəfindən məcburi köçkünlərin yeni salınmış yaşayış məntəqələrinə geri qayıdışı üçün məlumatlandırma, təbliğat-izahat və təşviqat işləri çərçivəsində Zabux sakinlərinin iştirakı ilə növbəti videoçarx hazırlanıb. 30 il həsrətində olduqları doğma yurda qayıdan sakinlər hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür edirlər. Onlar, həmçinin torpaqlarımızı işğaldan qurtaran rəşadətli Azərbaycan Ordusuna,



qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirib, bu yolda canlarından keçən şəhidlərimizə rəhmət, ailələrinə səbir diləyiblər.

Dövlət Komitəsi Zabuxda daimi məskunlaşmış sakinlərin yaşayışına həsr olunmuş videoçarxı təqdim edir.

# Siyəzəndə muzdla çalışanların orta aylıq əməkhaqqı artıb

***Siyəzən rayonunda 2023-cü ildə muzdla çalışan işçilərin sayı 6438 nəfər, o cümlədən iqtisadiyyatın dövlət sektorunda 3558 nəfər, qeyri-dövlət sektorunda 2880 nəfər təşkil edib.***

2023-cü ildə rayon iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı əvvəlki ilə nisbətən 9,7 faiz artaraq 706,7 manat təşkil edib. Muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı dövlət sektorunda 845,5 manat, özəl sektorda 533,2 manat olub.

Maliyyə və sığorta fəaliyyəti, nəqliyyat və anbar təsərrüfatı, mədənçıxarma sənayesində, dövlət idarətməsi və müdafiə; sosial təminat sahəsində, elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sahəsində, əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi sahələrində, emal sənayesində orta aylıq nominal əməkhaqqı rayon üzrə orta göstəricidən yüksək olub.

***Kamil Xəlilov,***

***Siyəzən Rayon Statistika İdarəsinin rəisi***

07_27 IYUI-QARA.qxd 2/23/2024 12:46 AM Page 14



# İnsanlara xoşbəxtlik verən faaliyyət növləri

***Asudə vaxtınızı səmərəli keçirməyiniz fiziki və psixi sağlamlığınıza böyük təsir göstərir. Zövq aldığınız fəaliyyətlər tez-tez stresdən və çətin həyat qərarlarından qurtulmağı təmin edən "bərpaedici" fəaliyyətlər olaraq adlandırılır. Tədqiqatlar ümumiyyətlə yaradıcılığın əhval-ruhiyyəyə təsir etdiyini göstərir.***



"Unikal" xəbər verir ki, stressi azaltmaq üçün ən faydalı olan beş yaradıcı fəaliyyət bunlardır:

**1. Musiqiyə qulaq asmaq**

Ən məşhur istirahət fəaliyyətlərindən biri olan musiqi dinləmək stress və narahatlığı aradan qaldırmağın ən təsirli yollarından biridir. Aparılan araşdırmalar nəticəsində məlum olub ki, insanların böyük əksəriyyəti stress və narahatlığı aradan qaldırmaq üçün musiqi dinləyir. Sevimli musiqini dinləmək beynin qorxu və narahatlıq kimi duyğuları tarazlaşdırmaqdan məsul olan amigdala hissəsini tarazlaşdırır. Beyninizin bu hissəsi xoş və ya şən kimi qəbul edilən musiqiyə həssasdır.

**2. Tapmacalar həll edin**

Tapmacaların həlli beynin xüsusilə düşünmə, qərar qəbul etmə, konsentrasiya və problem həll etmə kimi idrak funksiyalarında iştirak edən prefrontal korteks hissəsini gücləndirir. Tapmacalar həm də lüğətinizi genişləndirir, düşüncəni stimullaşdırır və öyrənmə qabiliyyətinizi sürətləndirir.

**3. Mahnı oxumaq və ya rəqs etmək**

Aparılan araşdırmalarda mahnı oxumağın və rəqs etməyin stress və narahatlığı aradan qaldıran yaradıcı fəaliyyətlər olduğu məlum olub.

**4. Rəsm və ya heykəltəraşlıq**

İncəsənət terapiyasının ruhi xəstəliklərin müalicəsində ifadə və ünsiyyət vasitəsi kimi istifadə edildiyini məlumdur. Bu qeyri-şifahi terapiya depressiya və narahatlıq əlamətlərinin aradan qaldırılmasında böyük rol oynaya bilər. Aparılan araşdırmalarda bu fəaliyyətlərin stresdən azad olmaq üçün bir vasitə olduğu müəyyənləşib.

**5. Yaradıcı yazı**

Jurnallar psixi sağlamlıq müalicəsində çox istifadə olunan bir vasitədir. Yazı, xüsusilə poetik və yaradıcı dildən ifadə forması kimi istifadə edildikdə müalicəvi ola bilər ki, bu da mühüm sahə sayıla bilər. Yaradıcı yazı psixi sağlamlığınıza fayda verə biləcək bir neçə yaradıcı fəaliyyətdən yalnız biridir. Ümumiyyətlə, gündəlik iş rejiminizdən kənarda iştirak etdiyiniz hər hansı bir fəaliyyət ruhi və fiziki sağlamlığınızı yaxşılaşdıra bilər.

*Zərifə Nağıyeva*

# Vətən yolunda şəhid olanlar ölmürlər

***Indi 32 ildir Milli Qəhrəman Səfəralı Qurban oğlu Məmmədovun nəsibi əzəmətli, müqəddəs şəhidlik zirvəsindən boylanan səadətidir.***



1963-cü ildə Masallının Sərçuvar kəndində dünyaya göz açan elin mərd oğlu 29 yaşında Birinci Qarabağ müharibəsində Vətən, millət yolunda şüurlu surətdə canını fəda edib. Qəhrəman Vətən sevdalısı cismən dünyadan getsə də, mənən milyonların qəlbində yaşayır. Bu günlər Masallı camaatı tərəfindən Səfəralı Məmmədovun xatirəsi anıldı. Mərasim Milli Qəhrəmanın adını daşıyan Sərçuvar kənd tam orta məktəbində baş tutdu.

Tədbirdə Masallı RİHB aparatının, rayon polis şöbəsinin əməkdaşları, qəhrəmanın ailə üzvləri, hərbçi yoldaşları, kənd sakinləri, ictimaiyyət nümayəndələri iştirak edirdilər. Ziyarətçilər qəhrəman oğlunun əziz xatirəsinə ehtiram əlaməti olaraq büstü önünə gül dəstələri düzdülər. Sonra onun şərəfli, zaman- zaman gələn nəsillərə nümunə olacaq həyat yolundan böyük qürurla, iftixarla danışanlar çox oldu. Bildirildi ki, Səfəralı qısa ömrünü Vətəninə sərf etdi. O, canından artıq sevdiyi doğma Azərbaycanın bütövlüyü uğrunda misilsiz fədakarlıq göstərib. Adı xalqın qəhrəmanlıq simvoluna dönərək dillərdən düşmür.

Səfəralı Məmmədov Ağdam rayon Daxili İşlər Şöbəsində post-patrul batalyonunda tağım komandiri vəzifəsində xidmət edib. O, 1992-ci il fevralın 16-da Xocavənd rayonunun Qaradağlı kənd sakinlərini azğınlaşmış erməni quldurlardan xilas edən zaman şəhid olub, ölümündən sonra "Azərbaycan Milli Qəhrəmanı" adına layiq görülüb. Masallı şəhərində küçələrdən biri, igid döyüşçünün təhsil aldığı məktəb onun adını daşıyır. Məktəbin həyətində büstü qoyulub, cəsur döyüşçüyə həsr olunmuş "Qəhrəman polis" adlı sənədli film çəkilib.

Anım tədbirində məktəblilərin ifasında Vətəni, Milli Qəhrəmanı, şəhidləri vəsf edən şerlər, nəğmələr səsləndi.

Bu sevgi və məhəbbətə, eləcə müharibə iştirakçılarına, şəhid ailələrinə göstərilən diqqət və qayğıya görə Milli Qəhrəmanın anası Şahdəstə xanım Məmmədova Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevə, xalqına, hər bir kəsə dərin razılığını söylədi.

*Zəfər Orucoğlu,*
*AJB üzvü*

# 2023-də Göygöl rayonunda sosial və iqtisadi göstəricilər belə olub

***2023-cü il ərzində iqtisadiyyatın əsas sahələri üzrə (sənaye, kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, tikinti, nəqliyyat və anbar təsərrüfatı, informasiya və rabitə, ticarət; nəqliyyat vasitələrinin təmiri) məhsul buraxılışı 266,9 milyon manat olub.***




İstehsal edilmiş məhsulun rayon əhalisinin hər nəferinə düşən dəyəri 4124,1 manat təşkil edib. Məhsul və xidmətlərin 71,1 faizi istehsal sahələrinin, 28,9 faizi isə xidmət sahələrinin payına düşür.

Məhsul və xidmətlərin 69,4 milyon manatı kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahələrində, 69,6 milyon manatı ticarət; nəqliyyat vasitələrinin təmiri sahələrində, 72,1 milyon manatı tikintidə, 48,3 milyon manatı sənayedə, 6,1 milyon manatı nəqliyyat və anbar təsərrüfatında, 1,4 milyon manatı isə informasiya və rabitə sahələrində istehsal olunmuşdur.

Əvvəlki illə müqayisədə məhsul buraxılışı informasiya və rabitə xidmətləri sahəsində 20,4 faiz, nəqliyyat və anbar təsərrüfatı sahəsində 4,8 faiz, ticarət; nəqliyyat vasitələrinin təmiri sahəsində 1,0 faiz artmışdır.

2023-cü ilin payızında rayonda 5375,0 hektar sahədə payızlıq şum qaldırılmış, 4286,5 hektar sahədə dən və yaşıl yem üçün payızlıq bitkilərin səpini aparılmışdır. 2023-cü ilin payız aylarında kənd təsərrüfatı müəssisələri 972,0 hektar sahədə şum qaldırmışlar ki, bunun da 483,5 hektar sahəsində səpin edilmişdir.

2023-cü ilin payızında dövlət təsərrüfatları 854,0 hektar sahədə şum qaldırmışdırlar ki, bu da əvvəlki ilə nisbətən 2,9 faiz çoxdur. Dövlət təsərrüfatları tərəfindən qaldırılmış şumun 453,5 hektar sahəsində səpin aparılmışdır.

Qeyri-dövlət müəssisələri tərəfindən qaldırılmış 118,0 hektar şumun 30,0 hektar sahəsində dən və yaşıl yem üçün payızlıq bitkilərin səpini aparılmışdır. Fərdi sahibkar ailə kəndli və ev təsərrüfatlarda gələn ilin məhsulu üçün 3803,0 hektar sahədə dən və yaşıl yem üçün payızlıq bitkiləri əkin etmişdirlər.

*Göygöl Rayon Statistika İdarəsi*

# Xankəndidə silah-sursat aşkarlandı

***Xankəndi şəhəri ərazisində silah-sursat aşkarlanıb.***

Daxili İşlər Nazirliyindən "Unikal"a verilən məlumata görə, polis əməkdaşlarının keçirdikləri tədbirlərlə fevralın 21-də Xankəndi şəhəri ərazisində 2 ədəd müxtəlif markalı avtomat silahı, 3 tüfəng, 10 ədəd qumbara, 16 patron darağı, 2950 ədəd müxtəlif çaplı patron və digər sursatlar aşkar olunaraq götürülüb.

# Ötən il Ucarda tikintiyə az investisiya yönəldilib

***2023-cü ildə müəssisə və təşkilatlar tərəfindən rayonun iqtisadi və sosial sahələrinin inkişafı üçün əsas kapitala bütün maliyyə mənbələrindən 10419,0 min manat və ya 2022-ci illə müqayisədə 4,7 faiz az investisiya yönəldilib.***

Əsas kapitala yönəldilmiş investisiyanın 9121,1 min manatı və ya 87,5 faizi dövlət, 1297,9 min manatı və ya 12,5 faizi isə qeyri-dövlət sektorunun payına düşüb.

2023-cü ildə əsas kapitala yönəldilmiş investisiyanın 10327,3 min manatını və ya 99,1 faizini tikinti-quraşdırma işləri təşkil etmişdir. Tikinti-quraşdırma işlərinin 9046,9 min manatı və ya 87,6 faizi dövlət, 1280,4 min manatı və ya 12,4 faizi, qeyri-dövlət müəssisələrinin payına düşmüşdür.

2023-cü ildə 5628,9 min manat dəyərində əsas fondlar istifadəyə verilmişdir. Əsas fondların 5279,3 min manatı dövlət sektorunun, 349,6 min manatı qeyri-dövlət sektorunun payına düşmüşdür. Rayonun ayrı-ayrı vətəndaşları tərəfindən ümumi sahəsi 1235,5 kv.metr olan 12 fərdi yaşayış evi inşa olunmuşdur ki, onların da dəyəri 349,6 min manat təşkil etmişdir.

Müəssisələrin öz istehsalı olan malların təqdim edilməsi, işlərin yerinə yetirilməsi və xidmətlərin göstərilməsi 2022-ci illə müqayisədə 49,2 faiz artaraq 7975,5 min manat olmuşdur.

*Cəlil Vəlimməmmədov,*
*Ucar Rayon Statistika idarəsinin aparıcı məsləhətçisi*

# "Bu, Amerika üçün böyük utancdır" - Kreml



***"ABŞ Prezidenti Co Baydenin Rusiya lideri Vladimir Putin haqqında səsləndirdiyi təhqiramiz ifadələr Amerika üçün böyük utancdır".***

"Unikal" xəbər verir ki, bunu Kremlin rəsmi sözçüsü Dmitri Peskov deyib. Onun sözlərinə görə, ABŞ liderinin bu cür açıqlamaları çətin ki, hər hansı şəkildə Putinə xələl gətirsin.

Qeyd edək ki, Co Bayden Rusiya prezidenti Vladimir Putin "dəli it oğlu" adlandırıb.

***Gülayə Mecid***

# "Zelenski tarixə qanlı təlxək kimi düşəcək" - Medvedev

***Ukrayna prezidenti Volodimir Zelenski tarixə "qanlı təlxək" kimi düşəcək.***

"Unikal" xəbər verir ki, bunu Rusiya Təhlükəsizlik Şurasının sədr müavini Dmitri Medvedev yerli KİV-ə müsahibəsində deyib.

Həmçinin, o, Zelenskinin taleyini kədərli adlandırıb.

***Zərifə Nağıyeva***

# Zelenski tezliklə Ərdoğanla görüşə bilər

***Ukrayna prezidenti Volodimir Zelenski yaxın vaxtlarda Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanla görüşə bilər. Görüşdə Ukrayna münaqişəsi müzakirə olunacaq.***

"Unikal" xəbər verir ki, Türkiyənin TRT World telekanalının məlumatına görə, bunu Albaniyanın baş naziri Edi Rama deyib.

Türkiyə lideri Albaniya Nazirlər Kabinetinin rəhbərinin Ankaraya səfəri zamanı dəvət alıb. O, Ərdoğana yaxın günlərdə Cənub-Şərqi Avropa ölkələrinin sammiti çərçivəsində prezident Zelenski ilə yüksək səviyyəli görüşün keçiriləcəyini bildirib. Rama bildirib ki, Türkiyə lideri dəvəti qəbul edib.

Yanvar ayında Ərdoğan Zelenski ilə telefon danışığı zamanı Ankaranın vasitəçi olmağa və Ukraynada sülhə nail olmaq üçün Rusiya ilə sülh danışıqları aparmağa hazır olduğunu açıqlamışdı.

Dekabrda Ərdoğan Türkiyə tərəfinin Ukraynadakı münaqişənin sülh yolu ilə həlli üçün İstanbul prosesini bir daha intensivləşdirməyə hazır olduğunu bəyan edib.

# Türkiyədə üç cinayət təşkilatının lideri saxlanıldı

***Türkiyənin 12 vilayətdə eyni vaxtda həyata keçirilən əməliyyatlarda Teoman Avcı və Ferdi Kayhanlı, Ömər Çınar və Salih Babayiğitin başçılıq etdiyi 3 mütəşəkkil cinayət qrupu məhv edilib.***

"Unikal" xəbər verir ki, bu barədə Türkiyənin daxili işlər naziri Əli Yerlikaya məlumat yayıb.

O, bildirilib ki, eyni vaxtda keçirilən "KAFES-45" əməliyyatlarında cinayət təşkilatının üzvü olan 63 nəfər saxlanılıb.

***Gülayə Mecid***

# Gürcüstanın yeni baş naziri deputat mandatından məhrum edildi

***Gürcüstan parlamenti ölkənin baş naziri İrakli Kobaxidze və yeni müdafiə naziri İrakli Çikovaninin parlament səlahiyyətlərinə vaxtından əvvəl xitam verib.***

"Unikal" xəbər verir ki, bu barədə gürcü KİV məlumat yayıb. Onlar yeni vəzifəyə keçdikləri üçün artıq deputat mandatında qala bilməzdilər.

Kobaxidzenin parlament səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi haqqında qərar layihəsinin lehinə 86 deputat, Çikovaninin səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsinə isə 78 deputat səs verib.

***Ağarza Elçinoğlu***

# "ABŞ yardım göstərməsə..." - Zelenski

***ABŞ-dən hərbi yardım göstərilməyəcəyi təqdirdə Ukraynanın B planı yoxdur.***

"Unikal" xəbər verir ki, bunu Ukrayna lideri Volodimir Zelenski "Fox News" telekanalına müsahibəsində deyib.



"Oxşar bir şey tapmalı olacağıq, təbii ki, tapacağıq, sadəcə dayanmayacağıq, sağ qalmalıyıq. Paralel addımlar, paralel xətlər tapmalıyıq ", - deyə o qeyd edib. Bundan əvvəl Ukrayna Milli Təhlükəsizlik Şurasının katibi Aleksey Danilov Qərb ölkələrini bütün silahlarını Ukrayna Silahlı Qüvvələrinə təhvil verməyə çağırıb.

Xatırladaq ki, ABŞ hazırda Kiyev rejiminə növbəti hərbi yardım paketinin ayrılmasını müzakirə edir. Senat müvafiq qanun layihəsini təsdiqləyib, lakin Nümayəndələr Palatası təşəbbüslə razılaşmadan fasilə verib.

***Gülayə Mecid***

# "Ölkəni Qorbaçovla itirdik, Putinlə tapdıq" - Rus deputat

***"Ölkəni Qorbaçovla itirdik, Putinlə tapdıq".***

"Unikal" xəbər verir ki, bunu Rusiya Federasiyası Dövlət Dumasının sədri Vyaçeslav Volodin deyib. O, Böyük Britaniya ilə 1956-cı ildə imzalanmış balıq ovu müqaviləsinin ləğvi ilə bağlı qərarı şərh edərkən deyib: "Krım Rusiyaya qayıtdı, Donbass və Novorossiyadakı qardaşlarımız qorundu, bu gün isə təbii sərvətləri qaytardıq. Müqavilənin denonsasiyasından sonra balıqçılarımız doğma Barents dənizində daha çox balıq tuta biləcək və bu, vətəndaşlarımız üçün daha əlçatan olacaq".

Qeyd edək ki, Rusiya Dövlət Duması fevralın 21-i ərəfəsində Britaniya balıqçı gəmilərinin Barents dənizində balıq tuta bilməsi haqqında SSRİ ilə Böyük Britaniya arasında balıqçılıq haqqında sazişi denonsasiya edib.

***Ağarza Elçinoğlu***



# Navalnı Ukraynaya qaçmağı planlaşdırırmış - İddia

***"Rusiya Könüllülər Korpusu"nun nümayəndələri Aleksey Navalnının ölümündən əvvəl onun koloniyadan qaçmasını təşkil etməyə çalışdıqlarını açıqlayıblar.***

"Unikal" xəbər verir ki, bu barədə "Baza" teleqram kanalı öz mənbələrinə istinadən məlumat yayıb.

İddialara görə, könüllülər Navalnını Ukraynaya qaçıracaqmışlar. "Bunun qarşısı Rusiya Federal Penitensiar Xidmət və FTX-nin təhlükəsizlik tədbirləri ilə alınıb. Onların bu planı baş tutmayıb", - kanal yazıb.



Qeyd edək ki, Navalnının qaçmasının təşkili versiyası ekspertlər arasında skeptisizm yaradıb.

Rusiyalı müxalif siyasətçi Aleksey Navalnı fevralın 16-da həbsxanada dünyasını dəyişib.

***Gülayə Mecid***

# "9 ölkə rəhbəri mənim yenidən prezident seçilməyimi istəyir" - Bayden

***Amerika prezidenti Co Bayden bildirib ki, doqquz xarici lider onu ikinci müddətə yenidən prezident seçilməsini dəstəkləyir.***

"Unikal" xəbər verir ki, o, bu barədə San-Fransiskoda qapalı seçki kampaniyasında çıxışı zamanı danışıb.

Bayden siyasətçilərin ona yaxınlaşaraq qalib gələcəyini gözlədiklərini bildiriblər: "Onlar mənə yaxınlaşıb deyirlər ki, "Siz qalib olmalısınız, çünki digəri qalib gəlsə, mənim demokratiyam təhlükə altında olacaq"", - deyə Amerika lideri vurğulayıb.

Qeyd edək ki, Bayden prezidentlərin adını və yaxud ölkələrini açıqlamayıb.

***Gülayə Mecid***

# Hakan Fidan Blinkenlə Ermənistan-Azərbaycan sülh danışıqlarını müzakirə etdi

***ABŞ dövlət katibi Entoni Blinken və Türkiyənin xarici işlər naziri Hakan Fidan Braziliyada ikitərəfli münasibətləri və regional məsələləri müzakirə ediblər.***

"Unikal" xəbər verir ki, bu barədə "Anadolu Agentliyi" məlumat yayıb. G-20 xarici işlər nazirlərinin Rio-de-Janeyro görüşü çərçivəsində Ermənistan və Azərbaycan arasında sülh danışıqları da müzakirə olunub.

Qəzza zolağında tam atəşkəsin təmin edilməsi üçün atılacaq addımlar, eləcə də Ukraynadakı müharibə, NATO-nun genişlənmə prosesi müzakirə mövzusu olub.

***Ağarza Elçinoğlu***

07_27 IYUl-QARA.qxd 2/23/2024 12:46 AM Page 16



# “Qarabağ” tarixində ilk dəfə avrokubokların 1/8 finalına yülsəldi

***“Qarabağ” tarixində ilk dəfə avrokubokların 1/8 finalına yüksəlib.***

”Unikal” xəbər verir ki, Azərbaycan çempionu UEFA Avropa Liqasının pley-off mərhələsində Portuqaliyanın “Braqa” klubunu üstələyərək, bunu reallaşdırıb.

Səfərdə 4:2 hesablı qələbə qazanan Ağdam təmsilçisi Tofiq Bəhramov adına Respublika stadionundakı cavab qarşılaşmasında 2:3 hesabı ilə uduzsa da, mərhələni adlamağı bacarıb.

Birinci hissədə qapılara qol vurulmayıb. 57-ci dəqiqədə “Qarabağ” meydançada azlıqda qalıb. Müdafiəçi Elvin Cəfərquliyev qırmızı vərəqə alıb. Say üstünlüyündən istifadə edən qonaqlar 70-ci dəqiqədə hesabı açıblar. Rocer Fernandes yaxın məsafədən çərçivəni dəqiq nişan alıb. “Braqa” 83-cü dəqiqədə ikinci qolu vurub. Bu dəfə Alvaro Calo fərqlənib.

Portuqaliyalılar 90 dəqiqəni 2:0 hesabı ilə öndə tamamlayıblar. Ümumi hesab 4:4 olduğundan, əlavə 30 dəqiqə oynanılıb.

102-ci dəqiqədə Mateus Silva fərqlənərək, “Qarabağ”ı ümumi hesabda önə keçirib.




Lakin 115-ci dəqiqədə Simon Banza penaltini dəqiq yerinə yetirərək, görüşdə hesabı komandasının xeyrinə 3:1-ə çatdırıb.

Ancaq təslim olmayan Azərbaycan çempionu 120+2-ci dəqiqədə növbəti mərhələni gətirən qolu vurub. Nəriman Axundzadə qapıçı ilə təkbətək şansı əldən verməyib. Nəticədə təmsilçimiz 2:3 hesabı ilə məğlub olsa da, ümumi hesabda 6:5 qalib gəlib.

Beləliklə, “Qarabağ” Azərbaycan futbol tarixində avrokubokların 1/8 finalına yüksələn ilk klub olub. Bu mərhələnin oyunları martın 7-də və 14-də keçiriləcək.

# Tanınmış futbolçu həbs olundu

***Otən ilin yanvar ayında həbs olunan Braziliya millisinin və İspaniyanın “Barselona” klubunun keçmiş futbolçusu Dani Alves yenidən məhkəmə qarşısına çıxıb.***

40 yaşlı veteran müdafiəçi 4,5 il müddətinə azadlıqdan məhrum edilib. Cəzadan əlavə, tanınmış futbolçu zərərçəkənə 150 min avro təzminat ödəyəcək.

Qeyd edək ki, Dani Alves 2022-ci ilin sonlarında Barselona şəhərində yerləşən gecə klubunda bir qadına təcavüz etməkdə ittiham olunaraq saxlanılıb.



# Klopp: "Liverpul" finalın favoriti deyil"

***”Liverpul”un baş məşqçisi Yurgen Klopp İngiltərə Liqa Kubokunun finalında ”Çelsi”yə qarşı keçirəcəkləri oyundan gözləntilərini bölüşüb.***

QOL.az Britaniya mətbuatına istinadən xəbər verir ki, mütəxəssis öz komandasını bu görüşün favoriti hesab etmədiyini deyib:



“Çelsi ilə finalın favoritiyik? Xeyr! Sonuncu dəfə ”Çelsi” ilə oynadığımız vaxtdan bəri onlar özlərini xeyli təkmilləşdiriblər. Əminəm ki, çətin matç olacaq”.

Xatırladaq ki, “Çelsi” - “Liverpul” görüşü bazar günü keçiriləcək. Oyun Bakı vaxtı ilə saat 19:00-da başlayacaq.

# Xviça Kvaratsxeliya əvəzləndi, məşqçinin əlini sıxmadı

***“Napoli”nin futbolçusu Xviça Kvaratsxeliya Çempionlar Liqasının 1/8 final mərhələsinin “Barselona” ilə ilk oyununda (1:1) əvəzlənməsinə əsəbləşib.***

QOL.az xəbər verir ki, bu barədə ”Football Italia” məlumat yayıb. Gürcüstanlı futbolçu 68-ci dəqiqədə meydanı tərk edib.

Kvaratsxeliya belə erkən əvəzlənməyinə təəccüblənib. Buna görə o, Françesko Kalzonenin əlini sıxmayıb. Stadionu ilk tərk edənin də Xviça olduğu qeyd edilir.

Kvaratsxeliya 2022-ci ilin yayından ”Napoli”də çıxış edir. Bu mövsüm o, bütün yarışlarda 33 oyuna çıxıb, 6 qol vurub və 4 qolun ötürməsini verib. Futbolçunun İtaliya klubu ilə müqaviləsi 2027-ci ilin iyunun sonuna kimi qüvvədədir.

# Türkiyə Superliqasında yeni mövsüm nə vaxt başlayacaq?

***Türkiyə Superliqasında 2024/2025 mövsümünün başlama tarixi müəyyənləşib.***



QOL.az Türkiyə Futbol Federasiyasının saytına istinadən xəbər verir ki, yeni mövsümə avqustun 9-u start veriləcək. İlk turun oyunları 9,10,11 və 12 avqust tarixlərində keçiriləcək.

Qeyd edək ki, Türkiyə Superliqasında bu mövsüm 26 turdan sonra 69 xalla ”Qalatasaray” liderdir.

# Şahmatçımız beynəlxalq turnirin qalibi oldu



***Azərbaycanın qadın şahmatçısı Gülnar Məmmədova beynəlxalq yarışın qalibi olub.***

Modern.az xəbər verir ki, 33 yaşlı qrosmeyster “Swiss Queens Wednesday” onlayn turnirində birinci yeri tutub. O, 8,5 xal toplayaraq bütün rəqiblərini geridə qoyub.

Qeyd edək ki, onlayn turnirin mükafat fondu 1000 ABŞ dollarıdır.

# Çempionlar Liqası: "Arsenal" uduzdu, "Barsa" heç-heçə etdi

***UEFA Çempionlar Liqasında 1/8 final mərhələsinin ilk matçlarına yekun vurulub.***



”Unikal” xəbər verir ki, son oyun günündə də iki qarşılaşma baş tutub. Portuqaliya “Portu”su doğma meydanda İngiltərənin “Arsenal” klubunu qəbul edib. Görüş meydan sahiblərinin minimal hesablı qələbəsi ilə başa çatıb. Yeganə qolu matçın əsas vaxtına əlavə olunmuş 4-cü dəqiqədə Qaleno vurub.

Digər matçda isə İspaniya “Barselona”sı İtaliyada “Napoli”nin qonağı olub. Neapoldakı qarşılaşmada qalib müəyyənləşməyib - 1:1. Hesabı 60-cı dəqiqədə Robert Levandovskinin vurduğu qolla qonaqlar açıblar. Meydan sahiblərinin heyətində isə 75-ci dəqiqədə Viktor Osimxen fərqlənib.

Qeyd edək ki, bu komandalar arasında cavab görüşləri martın 12-də oynanılacaq.

# Ronaldo komandasına qələbə qazandırdı



***Səudiyyə Ərəbistanının “Əl-Nəsr” klubu ötən gün Asiya Çempionlar Liqasının 1/8 final mərhələsinin cavab oyununa çıxıb.***

Komanda evdə “Əl-Faiha” ilə qarşılaşıb. Meydan sahibləri bu görüşdə qalib olub. Kriştiano Ronaldo 1 qolla yadda qalıb, digər qolun müəllifi isə Otavio olub.

Qeyd edək ki, ilk qarşılaşmada 1:0 hesabı ilə qalib gələn “Əl-Nəsr” 1/4 finala yüksəlib.

Asiya Çempionlar Liqasının, 1/8 final mərhələsi
22 fevral 2024
“Əl-Nəsr” - “Əl-Faiha” - 2:0
Qollar: Otavio, 17, Ronado, 86